RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 3 (9170) 8 YANVAR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan 2023-cü ilə böyük uğurlarla qədəm qoydu

## İlham Əliyevin xarici siyasət konsepsiyası dövlətimizin milli maraqlarını layiqincə təmin edir

2022-ci il Azərbaycanın tarixinə növbəti uğurlu dövr kimi həkk olundu. Vətən müharibəsinin bitməsindən qısa dövr ötməsinə, habelə pandemiyanın hələ də davam etməsinə baxmayaraq, ötən il respublikamızda iqtisadi və sosial sferada mühüm nailiyyətlər əldə edildi. İqtisadiyyatda təxminən 5 faiz, qeyri-neft sektorunda 9 faizdən çox artım qeydə alındı.

### Qarşıya qoyulan bütün vəzifələr yerinə yetirilib

Prezident İlham Əliyev 2021-ci ilin sonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində demişdi: "Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək. Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

2022-ci ilin mənzərəsi göstərir ki, dövlət başçısının dediyi kimi, ötən il ölkəmiz üçün uğurlu dövr olub. Bu dövrdə qarşıya qoyulan bütün vəzifələr yerinə yetirilib, respublikamız özünün strateji məqsədlərinə doğru inamla addımlayıb.

Öncə onu qeyd edək ki, 2020-ci ilin 44 günlük Vətən savaşında qazanılan qələbə, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması ötən il respublikamızda gedən bütün proseslərə əhəmiyyətli dərəcədə təsir göstərdi. Ən əsası, bu zəfər cəmiyyətimizdə yüksək ovqatın yaranmasına yol açan amil kimi özünü göstərdi. Vətən savaşında qazanılan zəfər ötən il Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsi ilə davam etdi. Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verildi, Zəngilanın Ağalı kəndinin sakinləri öz yurdlarına qayıtdılar. Bu cür nəhəng infrastruktur layihələrinin qısa müddətdə yerinə yetirilməsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin növbəti təcəssümü kimi tarixə düşdü.

Prezident İlham Əliyev ötən il regionlara 30 dəfə səfər edib və bunların 21-i işğaldan azad edilmiş torpaqlara olub. Bu fakt bir daha göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasını il ərzində dövlət başçısı xüsusi diqqət mərkəzində saxlayıb.

→ 2

## Heydər Əliyev İli 2023



## Nəsillərə əmanət zəngin tarixi irs

2023-cü il tariximizə xüsusi bir əlamətdarlıqla yazılacaq. Bu il mayın 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamamlanır. Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə qədəm qoyduğumuz 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilib.

Böyük şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində qeyd olunması, bu münasibətlə müxtəlif tədbirlərin təşkili dünyanın müxtəlif ölkələri üçün xarakterikdir. Bütöv bir ilin ayrı-ayrı şəxsiyyətlərin şərəfinə adlandırılması isə Azərbaycanın yaratdığı parlaq örnəkdir və bu, xalqımızın ictimai fikir, milli dövlətçilik tarixində mühüm xidmətləri olmuş böyük şəxsiyyətlərimizə ölkə rəhbərimizin yüksək ehtiramından irəli gəlir.

Biz elə bir dövrdə yaşayırıq ki, indi şəxsiyyətlərimizi yaxından tanımağa və bütün dünyada tanıtmağımıza daha çox ehtiyacımız var. Xalqı yüksəldən, başqa xalqlar cərgəsində boyunu uca, mövqeyini güclü, zəkasını aydın və işıqlı göstərən onun şəxsiyyətləridir. Xüsusilə qloballaşma dövründə şəxsiyyətlərimiz bizim milli və hüquqi kimliyimizi qoruyan, öz böyüklüyümüzü bizim özümüzə və başqalarına xatırladan, gələcəyə doğru yolumuzu düzgün istiqamətləndirən dəyərlərimizdirlər. Gənc nəslin mənəvi tərbiyəsində, onların vətənpərvərlik, Azərbaycana sevgi ruhunda yetişdirilməsində şəxsiyyətlərimizin, onların milli-mənəvi, böyük dövlətçilik irsinin rolu müstəsnadır.

→ 3

## Qərbi Azərbaycandan olan soydaşlarımız tarixi torpaqlarına qayıdacaqlarına inanırlar

Ata-baba yurdunu unutmaq mümkünsüzdür. Başqa yerdə yaşasa da, lap elə rahatlıq tapsa da, insan heç vaxt bir zamanlar əcdadlarının gəzib-dolaşdıqları, dəfn olunduqları torpaqları ziyarət etmədən mənəvi dinclik tapa bilmir.

XX əsrdə öz doğma yurdundan, isti ocağından zorla çıxarılan, Qərbi Azərbaycandan deportasiya edilən yüz minlərlə soydaşımızın da ən böyük həsrəti, nisgilidir bu. Onlar da tarixi torpaqlarına qovuşacaqları günlərin arzusu, xəyalı ilə yaşayırlar. Bu mənada Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı qətiyyətlə vurğuladığı bu sözlər ümid işığına çevrildi. Dövlət başçısı dedi: "Hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur".

→ 3

## "Şuşa ili"nin təntənəsi

### Ötən ili başdan-başa Zəfər zirvəmizin bayram coşqusu ilə qeyd etdik

"...Mən yeni ili "Şuşa ili" elan edirəm..."

Prezident İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etməsinin müjdəsini Azərbaycan xalqına Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciəti zamanı vermişdi. Qalib lider onu da bildirmişdi ki, bu il həm də təməli 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhərinin 270 illik yubileyi böyük təntənə ilə qeyd ediləcək.

Dövlət başçısının Şuşanın şanlı tarixinin bayram kimi qeyd edilməsinə, eləcə də mədəniyyət beşiyimizin bərpasının, dirçəlişinin sürətləndirilməsinə töhfə verən mühüm qərarları sayəsində ötən ili başdan-başa "Şuşa ili"nin təmtərağında, Zəfər zirvəmizin bayram ab-havasında qeyd etdik.

Uca sıldırımlar başında bina edilən əzəmətli Vətən qibləmizlə qürurlandıq, tarixi şəhərimizin ruhunun özünə qaytarılmasının fəxrini yaşadıq.

Və bir daha Azərbaycan xalqının, Azərbaycan Prezidenti İlham Əliyevin qəlbindəki Şuşa sevgisinə heyran olduq.

→ 4

## Ermənilər 2023-cü ildən də yaxşı nəsə gözləmirlər

### Ermənistanda siyasi gərginlik getdikcə daha da artır

Ermənistan iqtisadiyyatında və sosial həyatında yaranan ağır vəziyyət davam edir. Erməni ekspertlər özləri də etiraf edirlər ki, bu gedişlə ölkə daha böyük fəlakətlərlə üzləşməli olacaq. Yaşanan iqtisadi böhran şəraitində gündəlik istehlak, xüsusən də ərzaq məhsullarının qiymətində baş verən artım mövcud ağır durumu daha da pisləşdirir. İqtisadçı Manvel Aramyan deyib ki, ölkə iqtisadiyyatının xilasına ümid var, lakin bunun üçün hökumət populist addımlardan əl çəkməli, kəmərləri sıxmalıdır.

→ 8

## İstəyirlərsə aksiyanı dayandıraq, tələblərimizi yerinə yetirsinlər



→ 5

## Pandemiya ilə uğurlu mübarizənin nümunəsi

### Ötən il Azərbaycanda COVID-19-a qarşı keçirilən tədbirlər effektiv nəticə verdi

Çində başlayan və bütün dünyanı təsiri altına alan COVID-19 üç ildir ki, davam edir. İnkişaf etmiş ölkələr belə bu virusla mübarizə aparsalar da və zaman-zaman yoluxma səngisə də, qeydə alınan son statistikalar vəziyyətin yenidən ağırlaşdığını göstərir. Son günlər virusa yoluxmalarda yenidən müşahidə edilən artım dünyanı təşvişə salıb. Bir göz qırpımında dünyaya dəhşətli bir bəla kimi yayılan koronavirus ənənəvi yaşamın şərtlərini kökündən dəyişərək yeni bir başlanğıca səbəb oldu.

→ 7



# Azərbaycan 2023-cü ilə böyük uğurlarla qədəm qoydu

## İlham Əliyevin xarici siyasət konsepsiyası dövlətimizin milli maraqlarını layiqincə təmin edir

*Əvvəli 1-ci səh.*

### İlham ƏLİYEV: "Tarixi Qələbəmizi siyasi müstəvidə daha da möhkəmləndirdik"

2022-ci ilin Azərbaycan üçün ən mühüm uğur göstəricilərindən biri ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirməsi, öz milli maraqlarını layiqincə təmin etməsidir. Eyni zamanda Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin də maraqlarının müdafiəsinə diqqət yetirmişdir.

Qlobal miqyasda Azərbaycanın il ərzində ən böyük uğurlarından biri isə Vətən müharibəsindəki zəfərimizin beynəlxalq miqyasda tam qəbul olunmasıdır. Bu məsələ ilə bağlı ötən ilin mənzərəsi göstərir ki, dünya ictimaiyyəti Azərbaycanın yaratdığı yeni reallıqları tam bölüşür. "İki il əvvəl döyüş meydanında qazandığımız tarixi Qələbəmizi siyasi müstəvidə daha da möhkəmləndirdik. Bu ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı" deyən Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib.

Ümumiyyətlə, il ərzində Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı aparılan danışıqlar Azərbaycanın qətiyyətli mövqeyi ilə müşayiət olundu. Ermənistanın ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıması da bunu təsdiq edir. 2022-ci il ərzində Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi Fərrux və "Qisas" əməliyyatları, o cümlədən sentyabr ayında baş verən döyüşlər göstərdi ki, Ermənistanın və Rusiya sülhməramlılarının müvəqqəti olduqları torpaqlarımızda qalan separatçıların ölkəmizə qarşı istənilən təxribatının qarşısı qətiyyətlə alınacaq. Bu döyüşlərdən sonra Ermənistanın beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana təzyiq edilməsi ilə bağlı cəhdləri də fiaskoya uğradı. Hətta Ermənistanın təmsil olunduğu hərbi və siyasi təşkilatlar belə Azərbaycanın haqlı mövqeyi qarşısında İrəvanın avantüralarına getmədilər. Bu hərbi əməliyyatların hər biri həm də Azərbaycan Ordusunun yüksək döyüş əzmindən xəbər verdi.

### Fransanın riyakarlığı bumeranq effekti verərək özünə dəydi

2022-ci il ərzində də Fransa riyakarcasına Ermənistanın müdafiəsi ilə məşğul oldu. Hətta bu məqsədlə Fransa senatında və milli assammbleyasında Azərbaycana qarşı sənədlər qəbul etdi. Azərbaycana təzyiq edə bilməyən Fransa bu yolla "kiçik bacısına" dəstək göstərdiyini sübut etməyə çalışdı. Amma elə Ermənistanın özündə belə Fransanın bu qərarları istehza ilə qarşılandı. Çünki ermənilər də başa düşürdülər ki, bu sənədlərin heç bir əhəmiyyəti yoxdur və Azərbaycan üçün kağız parçasından başqa bir şey deyil.

İlin sonunda isə Fransanın BMT Təhlükəsizlik Şurasındakı fiaskosu Azərbaycanın növbəti siyasi-diplomatik qələbəsi oldu. Azərbaycanlı fəalların Xankəndi-Laçın yolunda keçirdikləri aksiya ilə əlaqədar olaraq Fransanın ölkəmizə qarşı etmək istədiyi riyakarlıq bumeranq effekti verərək özünə dəydi. Fransa prezidentinin və bu ölkənin siyasi dairələrinin rüsvayçılığı olan bu hadisə bir daha onu göstərdi ki, Prezident İlham Əliyevin uğurlu xarici siyasət konsepsiyası Azərbaycanın milli maraqlarını layiqincə təmin edir.

2022-ci il Azərbaycan üçün mühüm hadisələrlə yadda qaldı. Həm daxili siyasətdə, həm xarici siyasətdə yeni uğurlar əldə olundu. Prezident İlham Əliyev hər bir məsələdə ölkəmizin mənafelərini qətiyyətlə qorudu. Bütün bunlar onu göstərir ki, 2023-cü ildə qarşıda duran vəzifələr tam yerinə yetiriləcək, Azərbaycan beynəlxalq müstəvidə öz maraqlarını uğurla həyata keçirəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Türkiyənin Antalya şəhərinə səfər edəcək



Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Asiya Parlament Assambleyasının 13-cü plenar sessiyasında iştirak etmək üçün yanvarın 8-də Türkiyə Respublikasının Antalya şəhərinə səfər edəcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, deputatlardan İlham Məmmədov, Anar Məmmədov, Aydın Hüseynov, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər.

Nümayəndə heyətimiz Asiya Parlament Assambleyasının (APA) 13-cü plenar sessiyasının gündəliyinə daxil olan məsələlərin müzakirəsində iştirak edəcək, Azərbaycan tərəfinin mövqeyini bildirəcək.

Səfər çərçivəsində Milli Məclis Sədrinin tədbirdə iştirak edəcək nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşləri nəzərdə tutulub.

***"Azərbaycan"***

# Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında birgə tədbirlər planı imzalanıb

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında Azərbaycan Ordusunda dini radikalizmə qarşı mübarizəyə dair 2023-cü il üçün birgə tədbirlər planı imzalanıb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sənədə əsasən Müdafiə Nazirliyinin tabeliyində olan qoşun (qüvvə) növü, birlik, birləşmə və hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində keçiriləcək tədbirlərin yeri, icra vaxtı və icraya məsul şəxslər müəyyənləşdirilib.

Bu il ərzində təşkil ediləcək görüşlərdə Azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

# Zəngəzur dəhlizi mütləq olmalıdır

## İlham ƏLİYEV: "Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir"

Tarixinin ən qüdrətli Azərbaycanı daha bir ili uğurla başa vurdu. 2022-ci il ölkəmizin ictimai-siyasi həyatında mühüm islahatlar, yeni rekordlar və möhtəşəm quruculuq işləri ilə yadda qaldı.

İkinci Qarabağ müharibəsində əldə edilmiş böyük Zəfərdən sonra yaranmış yeni reallıqlara uyğun addım atan Prezident İlham Əliyev işğaldan azad edilən torpaqlarımızda həyata keçirilən layihələrlə bir daha dünyaya Azərbaycanın iqtisadi qüdrətini nümayiş etdirdi. Bu möhtəşəm yenidənqurma işlərini Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına, yəni heç kimdən maddi yardım almadan həyata keçirir. Bunu şərtləndirən amil isə iqtisadi müstəqillikdir. Məhz bunun hesabına ötən il Azərbaycan iqtisadiyyatı 130 milyard manata yüksəlib və dövlət başçısı bu nailiyyəti rekord göstərici adlandırıb.

İqtisadi qüdrəti getdikcə artan Azərbaycan geosiyasi və geoitqisadi imkanlarının daha da genişlənməsini mühüm prioritet məsələ kimi müəyyənləşdirib. Şanlı zəfərdən sonra yaranmış yeni reallıqlar bütün bu proseslərin uğurlu getməsi üçün əlverişli imkan yaradıb.

Bu gün Azərbaycan beynəlxalqmiqyaslı transmilli layihələrin reallaşmasında da aktiv rol oynayır. İlham Əliyevin qlobal təşəbbüsləri ilə Azərbaycan Avropa ilə Asiya arasında ticarət körpüləri yaradır. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi Azərbaycan üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir və bu proseslərə mühüm töhfəsini verir. Bütün bunlarla yanaşı, Cənubi Qafqazın lider dövləti Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) daha səmərəli və etibarlı marşrut olması üçün çox mütərəqqi təkliflər irəli sürür. Bunlardan biri də Zəngəzur dəhlizinin açılması təklifidir.

Hazırda Orta dəhliz uzaq Çindən yüklərin Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilir. Bu marşrut Şimal dəhlizindən orta hesabla 2500 kilometr qısadır və dəmir yolu ilə səyahət müddətini yeddi-səkkiz gün azaltmaq potensialına malikdir. O həmçinin keçdiyi ölkələr arasında ticarətin inkişafına kömək etmək iqtidarındadır. Bu dəhliz həm də tarixi Böyük İpək yolunun yenidən canlandırılmasını şərtləndirir. Çünki Orta dəhliz vasitəsi ilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya daşınacaq.

Bu dəhlizin əhəmiyyətini artıran digər məsələ isə Rusiya-Ukrayna müharibəsidir. Çünki Rusiya vasitəsilə Asiyadan Avropa İttifaqı (Aİ) bazarlarına məhsulların tədarükündə problemlərin yaranması Orta dəhlizə olan marağı artırır. Bu baxımdan dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında təbii körpü rolunu oynayan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır.

Orta dəhliz üzrə hərəkət edən blok qatarı yükləri orta hesabla 20-25 günə Çindən Avropaya çatdırır ki, bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biri sayılır. Dəhlizin əhəmiyyətinin Ukrayna-Rusiya münaqişəsindən sonra kəskin şəkildə artmasını iqtisadi göstəricilər də təsdiqləyir. Belə ki, 2022-ci ilin birinci rübündə bu istiqamət üzrə yükdaşımaların həcmi 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 28 faiz artıb.

Sözü imzası qədər keçərli olan İlham Əliyev yaxın zamanlarda reallığa çevriləcək Zəngəzur dəhlizinin həm bölgə, həm də ümumilikdə Avrasiya arealı üçün böyük əhəmiyyətinin olduğunu vurğulamışdır.




Artıq xeyli müddətdir ki, bu istiqamətdə mühüm işlər həyata keçirilməkdədir. İndi əsas məsələ dəhlizin quru yollarının açılışına istiqamətlənib. Bu istiqamətdə də 2 layihə reallaşdırılır - Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu. Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti 2023-ci ildə, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu isə 2024-cü ildə istifadəyə veriləcək.

2021-ci il fevralın 14-də Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşması nəzərdə tutulan layihələrdən birinin - Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin təməlini qoyub. Bu dəmir yolu xətti Zəngəzur dəhlizinin bir parçasıdır. Layihənin birinci mərhələsi üzrə nəzərdə tutulan tikinti işlərinin artıq 80 faizdən çoxu tamamlanıb. Dəmir yolu xəttinin ox üzrə uzunluğu 110,4 kilometr təşkil edir. Tikinti işləri 3 mərhələdə həyata keçirilir. Layihə çərçivəsində 8 stansiya, 3 tunel, 41 körpü, 3 qalereya, 4 yolötürücü və ümumilikdə 300-ə yaxın süni mühəndis qurğunun tikintisi planlaşdırılır. Artıq onların böyük əksəriyyəti reallaşıb.

Ümumiyyətlə, bu dəmir yolunun strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişində əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ olan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Zəngəzur dəhlizi ilə həm də Avropaya enerji ixrac edilməsi nəzərdə tutulur. Ağcabədi 330 kV-luq yarımstansiyasının tikilməsi və bu xəttin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana çəkilməsi və həmin xətt vasitəsi ilə elektrik enerjisinin Türkiyəyə, oradan da Avropa bazarına ixrac edilməsi məsələsi gündəmdədir.

Ən önəmlisi odur ki, bu dəmir yol xətti gələcəkdə Azərbaycandan keçməklə Avropa ilə Asiyanı birləşdirən bir layihəyə çevriləcək. Bu da öz növbəsində Qarabağın gələcəkdə iqtisadi potensialına böyük töhfə verəcək.

2021-ci il oktyabrın 26-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Prezident İlham Əliyevin birgə təməlini qoyduqları, Zəngəzur dəhlizinin bir parçası olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun da tikintisi davam etdirilir. Uzunluğu 123,8 kilometr olan bu yol 4-6 hərəkət zolaqlı olacaq. Yolun 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Göründüyü kimi, Zəngəzur nəqliyyat dəhlizi ölkəmizin ərazisindən keçməklə Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb nəqliyyat dəhlizinin bir hissəsinə çevriləcək.

Bu dəhliz həmçinin qardaş Türkiyə Respublikası üçün önəmli iqtisadi imkanlar tanıyacaq. Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu ilə hərəkəti reallaşdıracaq. Şübhəsiz ki, bu da öz növbəsində ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha sürətli inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək.

Ermənistan bu dəhlizin açılmasına qarşı çıxsa da, bu, 10 noyabr Üçtərəfli Bəyanatının müddəasıdır. Məğlub ölkə müharibə başa çatdıqdan sonra dəhlizin açılması istiqamətində üzərinə götürdüyü öhdəliyi reallaşdıracağına söz versə də, bir müddətdən sonra prosesi dayandırdı. Azərbaycan isə həm avtomobil, həm də dəmir yolu çəkilişini davam etdirdi. İrəvan isə yeni iddialarla çıxış edərək yenə də öz xislətini nümayiş etdirməyə başladı. Bəyanatın imzalanmasının vasitəçisi olan Rusiya isə Ermənistana bununla bağlı heç bir xəbərdarlıq etmədi. Amma 44 günə Azərbaycan Ordusu qarşısında diz çöküb yalvaran Ermənistan rəhbərliyinə əsl xəbərdarlığı qalib komandan İlham Əliyev etdi. Azərbaycan Prezidenti dedi ki, Zəngəzur dəhlizi açılmayacaqsa, Ermənistanla heç bir sülh sazişi imzalanmayacaq və lazım gələrsə "dəmir yumurq" yenidən işə düşəcək. İlham Əliyev qəti şəkildə bildirdi ki, Ermənistan götürdüyü öhdəliyə əsasən Azərbaycanı Naxçıvanla birləşdirən Zəngəzur dəhlizinin açılmasını əngəlləmək istəsə, bunun nəticəsi çox ağır olacaq: "Əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgə yaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səyləri uğursuz olacaq".

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində də İlham Əliyev bir daha bu məsələyə toxunaraq bidirdi ki, iki il əvvəl döyüş meydanında qazanılan tarixi Qələbəmizi siyasi müstəvidə daha da möhkəmləndirdik: "Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır, dəmir yolları, avtomobil yolları çəkilir. Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".

Bu, əsl sərkərdə qətiyyətidir, İlham Əliyev sözüdür. Əgər Azərbaycan Prezidenti bir məsələ ilə bağlı hansısa mövqeyini ortaya qoyursa, demək, o mütləq gerçəkliyə çevriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Heydər Əliyev İli 2023



# Nəsillərə əmanət zəngin tarixi irs

*Əvvəli 1-ci səh.*

## Xilaskar

Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük, dahi şəxsiyyətlərdəndir. Ulu Öndərin həyat yolu, zəngin dövlətçilik irsi özlüyündə böyük bir tarixdir. İstənilən şəxsiyyəti yaşadığı zamandan, tarixi dövrdən kənarda təsəvvür etmək mümkün deyil. Əslində, yaşadıqları dövr aradan illər, qərinələr, əsrlər ötəndən sonra elə onların adları ətrafında, yaratdıqları irsin əhatəsində görünür. Bu da bizə əbədiyyət qazanmış insanların işığında böyük bir tarixi görüb hiss etmək, zamanın ruhunu duymaq fürsəti qazandırır.

Ölkəmizin ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyinə nail olması Ümummilli Liderin hələ 70-80-ci illərdə sovet Azərbaycanına rəhbərliyi dövründə dövlətimizin sosial-iqtisadi, mədəni yüksəlişi, xalqın rifahı, milli şüurun oyanışı istiqamətində apardığı işlərin nəticəsi idi. O illərdə məhz Heydər Əliyev Azərbaycanı keçmiş ittifaqın geridə qalmış aqrar respublikasından öncül sənaye ölkəsinə çevirmiş, öz həyatını müstəqil şəkildə qura bilməsi, heç bir ölkədən asılı olmadan yaşaması üçün bütün zəruri potensialı formalaşdırmışdır. Ulu Öndərin həmin zamanlarda inşa etdirdiyi sənaye müəssisələri, qurub-yaratdığı infrastruktur müstəqillik dövründə Azərbaycanın sosial-iqtisadi inkişafında müstəsna dərəcədə böyük rol oynamış, belə möhkəm təməllərə əsaslanaraq Azərbaycan yeni strateji dövrə uğurla keçid edə bilmişdir. Heydər Əliyev Azərbaycan üçün təkcə sənaye potensialı formalaşdırmamışdı, həm də ölkəyə lazım olan insan kapitalını yetişdirmişdi. İstedadlı insanlara dəstəyi ilə, onların oxuyub təhsil almalarına, özlərini hərtərəfli yetişdirmələrinə yaratdığı şəraitlə böyük intellektual baza yaratmışdı. Ulu Öndər bütün dövrlərdə Azərbaycan elminin, mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, idmanının ən böyük hamisi olmuşdur. Məhz onun bütün bu sahələrə diqqəti sayəsində hələ ötən əsrin ortalarından Azərbaycanın imzası, səsi-sözü dünyada eşidilməyə başlamış, beynəlxalq aləm bizi zəngin mədəniyyətimizlə, tarixi irsimizlə kəşf etmişdir.

Bu mənada Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizi ardıcıl, dayanıqlı inkişaf yoluna çıxarmış, həmin dövrü Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələrinə çevirməyə müvəffəq olmuşdur.

Heydər Əliyev böyük siyasi iradəsi, sarsılmaz əqidəsi, yüksək idarəçilik istedadı, məşğul olduğu işə bağlılığı və məsuliyyətli münasibəti sayəsində keçmiş SSRİ kimi nəhəng imperiyanın rəhbərlərindən biri mövqeyinə qədər yüksəlmiş, bununla Azərbaycan xalqının böyüklüyünü, mənəvi potensialını bir daha bütün dünyaya göstərmişdir. Böyük bir coğrafiyada icrasına rəhbərlik etdiyi irimiqyaslı layihələrlə ümumilikdə bəşəriyyətə faydalar vermək üçün çalışmışdır. Kremldə çalışdığı zamanlarda da Heydər Əliyev bütün varlığı ilə sevdiyi Azərbaycanı daim nəzər-diqqətində saxlamış, doğma xalqının mənafelərini daim öndə tutmuşdur. Azərbaycanın o dövrün şərtlərinə uyğun hərtərəfli inkişafı üçün misilsiz əzmkarlıq göstərmişdir.

Ölkəmizin sözün əsl mənasında müstəqil olması, gerçək müstəqilliyinə qovuşması da yenə məhz Heydər Əliyevin tarixi xidmətləridir. Azərbaycanın parçalanma təhlükəsi qarşısında qaldığı, müstəqil dövlət kimi dünya xəritəsindən silinmək qorxusu ilə yaşadığı ağır günlərində xalqın təkidli tələbi ilə dövlətin ali rəhbərliyinə qayıdan Ulu Öndər xalqımızı zamanın sınaqlarından uğurla çıxararaq, müstəqilliyimizin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

## Müasir Azərbaycanın qurucusu

Heydər Əliyev böyük strateq idi. O, Azərbaycan xalqının, dövlətinin inkişafı ilə bağlı qarşıya böyük milli hədəflər qoyur, insanları bu hədəflərə doğru səfərbərliyə almağı bacarır, eyni zamanda hər yeni strateji dövr üzrə inkişaf proseslərinin ardıcıllığını təmin edə bilirdi. Ümummilli Lider onun kimi tarixi şəxsiyyətlərimizi yetirmiş xalqımızın yaradıcılıq enerjisinə dərindən bələd idi. Dahi şəxsiyyət bu enerjini vahid məqsədlərə doğru yönəltməyə müvəffəq olurdu. Ulu Öndər xalqın milli ruhunu canlandırırdı, bizi soy-kökümüzə qaytarırdı, milli-mənəvi dəyərlərimizə sahib çıxırdı, bütün bunlarla müstəqil dövlət quruculuğuna aparan yolumuzu daha da aydınladır, bu yolda addımlarımızı möhkəmləndirirdi.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan hüquqi və demokratik islahatlar ilk növbədə qanunun aliliyinə əsaslanan ictimai münasibətlər sisteminin formalaşmasına gətirib çıxarmışdı, ölkədə dövlət quruculuğu prosesini uğurla həyata keçirməyə şərait yaratmışdı. Sosial həyatın ayrı-ayrı sahələrini tənzimləyən qanunların qəbulu, aparılan tədbirlər, görülən işlər cəmiyyətin təhlükəsizliyinin təmin olunmasında, Azərbaycanın modern bir dövlət olaraq beynəlxalq aləmdə tanınmasında müstəsna rol oynamışdı. Böyük rəhbərin dövlətçilik ideyaları həm də xalqımızın tarixi ənənələrinə, milli-mənəvi dəyərlərinə söykənmişdi.

Ümummilli Lider Azərbaycanda iki sivilizasiyanın konseptual paramentrlərini özündə təkmil bir formada birləşdirən unikal bir dövlət modeli yaratmışdı. Məhz bu model Azərbaycanın dünyanın ən inkişaf etmiş dövlətlərinin strateji tərəfdaşına çevrilməsində, Cənubi Qafqazın nüfuzlu ölkəsi kimi tanınmasında və nəhəng uğurlara imza atmasında həlledici təsirə malik olmuşdur.

2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsinə dair Prezident sərəncamında da xüsusi vurğulandığı kimi, Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Ulu Öndər ötən əsrin hər cəhətdən çətin, mürəkkəb, xaotik dönəmlərində hər kəsin edə bilməyəcəyi vəzifələrin öhdəsindən gəlmiş, hər zaman ona güvənən, inanan, dəstək verən Azərbaycan xalqının ümidlərini doğrultmuş, müstəqil dövlətimizi ağır təhlükələrdən xilas edərək rəvan inkişaf yoluna çıxarmışdır. Müstəqilliyin ilk illərində cəmiyyət həyatında tüğyan edən anarxiyanın, özbaşınalığın, silahlı qarşıdurmaların dayandırılması, sosial-iqtisadi, mənəvi böhranın qarşısının alınması, vahid amallar uğrunda milli birliyin təmin olunması, demokratik, hüquqi dövlət quruculuğu proseslərinin uğurla həyata keçirilməsi, nizami ordunun formalaşdırılması Ümummilli Liderin böyük tarixi xidmətləridir.

Ulu Öndər bütün dünya azərbaycanlılarını tarixi vətən işığında bir araya gətirən azərbaycançılıq ideologiyasını cəmiyyətə təqdim etmiş, qloballaşma mühitində ana dilimizə, digər milli-mənəvi dəyərlərimizə dövlət qayğısının mükəmməl örnəyini yaratmış, Azərbaycanı çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi dünyaya tanıtmışdır.

Heydər Əliyev Azərbaycanın yeni neft strategiyasının əsasını qoymuş, ölkəmizin dayanıqlı inkişafı üçün möhkəm təməllər formalaşdırmış, ideya müəllifi olduğu qlobal layihələrlə müstəqil dövlətimizin beynəlxalq nüfuzunu gücləndirmişdir. Ümummilli Lider müstəqil dövlətimizin milli inkişaf strategiyasını müəyyən etmiş və ölkəmizi tarixinin ən qüdrətli dövrünə çatdıracaq güclü Lideri - Ordumuzun gücü ilə torpaqlarımızı 44 gün içində işğaldan azad edərək Heydər Əliyevin ən böyük arzusunu həyata keçirən Müzəffər Sərkərdəni - cənab İlham Əliyevi yetişdirmişdir.

## Mənəvi sərvət

Dövlət rəhbərimizin müvafiq sərəncamındakı tapşırığa uyğun olaraq Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı təsdiqlənib. İlboyu Ümummilli Liderin xatirəsinə həsr ediləcək tədbirlərin spektri kifayət qədər genişdir. Belə ki, il ərzində bu mövzuda yerli və beynəlxalq əhəmiyyətli forumlar, konfranslar, simpoziumlar, "dəyirmi masa" və seminarlar keçiriləcək. Yerli və xarici mediada Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən verilişlər, sənədli film və videoçarxlar nümayiş etdiriləcək, müsahibə və məqalələr dərc ediləcək. Azərbaycan Respublikasının şəhər və rayonlarında elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlər təşkil olunacaq.

Eləcə də "Heydər Əliyev İli"nə həsr olunmuş müxtəlif müsabiqələr, sərgi, festival, konsert və tamaşalar keçiriləcək. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən çoxsaylı tədbirlər olacaq. Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan Evləri tərəfindən Heydər Əliyevin zəngin irsinə həsr olunmuş beynəlxalq konfranslar nəzərdə tutulub. Ölkəmizin üzv olduğu beynəlxalq təşkilatlarda da "Heydər Əliyev İli" ilə əlaqədar tədbirlərin təşkili planlaşdırılıb.

"Heydər Əliyev İli" çərçivəsində həmçinin müxtəlif idman yarışları və beynəlxalq turnirlər təşkil ediləcək. Ulu Öndərin irsinə həsr olunmuş əsərlər, kitablar və monoqrafiyalar nəşr olunacaq. Ali təhsildə yüksək akademik göstəriciləri olan tələbələrə "Heydər Əliyev təqaüdü" veriləcək. Azərbaycan Respublikasının "Heydər Əliyev - 100" yubiley medalı təsis ediləcək. Xatirə nişanları buraxılacaq, qızıl sikkələr hazırlanacaq. "Heydər Əliyev" mükafatının təqdimat mərasiminin keçirilməsi də nəzərdə tutulub.

Prezidentin müvafiq sərəncamında da qeyd edildiyi kiimi, müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. "Heydər Əliyev İli" kimi tarixiləşən 2023-cü il bu irsdən, mənəvi sərvətdən faydalanaraq, onu yeni nəsillərə aşılamaq, bütün dünyada xalqımızın böyüklüyünü göstərmək üçün daha bir imkandır.

Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi etmiş dahi şəxsiyyətdir!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycandan olan soydaşlarımız tarixi torpaqlarına qayıdacaqlarına inanırlar

*Əvvəli 1-ci səh.*

## Saxtakarlıqla, faciələrlə qurulan Ermənistan dövləti

2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində qazandığımız parlaq qələbə dostlarımıza da, düşmənlərimizə də dövlətimizin və xalqımızın gücünü, qüdrətini göstərdi. Bu gün Azərbaycan dövləti Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışı əzmlə, qətiyyətlə gerçəkləşdirir. Növbəti tarixi hədəf isə daha bir ədalətsizliyə son qoyulması, Qərbi azərbaycanlıların pozulan hüquqlarının bərpa olunması, onların əzəli yurdlarına qaytarılmasıdır.

Tarix sübut edir ki, yalanla, riyakarlıqla uzağa getmək mümkünsüzdür. Erməni millətçiləri də uydurduqları və heç bir dövləti, heç bir xalqı səmimi şəkildə inandıra bilmədikləri "dənizdən-dənizə Ermənistan" xülyası ilə öz məqsədlərinə nail ola bilməyəcəklər. Ancaq təəssüf ki, bu xəstə düşüncənin, boş xülyanın ağrısını, acısını çəkən günahsız insanlar olub. İşğalçı, təcavüzkar ermənilər XIX və XX əsrlərdə Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasəti həyata keçiriblər. Həm də bu siyasəti pərakəndə deyil, düşünülmüş, planlı, mərhələli şəkildə reallaşdırıblar. Bu məkrli plan azərbaycanlıların tarixi torpaqlarında indi Ermənistan adlandırılan dövlətin qurulması ilə nəticələnib. Mənfur ermənilər bununla da kifayətlənməyiblər. Azərbaycanın digər ərazilərinə göz dikiblər. İşğalçılıq siyasətlərini davam etdiriblər. Zaman-zaman ermənilər azərbaycanlılara qarşı soyqırımları, terror əməlləri törədiblər. XX əsrin sonuncu onilliyində isə işğal etdikləri Azəbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində insanlığa sığmayan, dəhşətli faciələr həyata keçirdilər.

Hələ bu faciələrdən qabaq isə məkrli ermənilər daha bir planlarını reallaşdıra bildilər. Onlar Qərbi Azərbaycan ərazilərinin əsl sakinlərinə hücum etdilər. Dinc, günahsız insanları qətlə yetirdilər. Soydaşlarımızı əzəli yurdlarından qovdular. Beləliklə, 1980-ci illərin sonraları və 1990-cı illərin əvvəllərindən Qərbi Azərbaycan azərbaycanlılarsız qaldı.

## Tarixin izləri hər zaman qalır

Təcavüzkar ermənilərin hər zaman qorxusu tarixi faktlar olub. Özgə torpaqlarında dövlət yaratmağa nail olsalar da, bundan sonra da işğalçılıq siyasətlərini davam etdirsələr də, biliblər ki, tarix onların yalanlarını üzlərinə vuracaq. Ona görə də planlarının bir hissəsi də qədim Azərbaycan abidələrini məhv etmək, saxtalaşdıraraq erməniləşdirmək olub. İgid Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq azadlığa çıxardığı Qarabağ və Şərqi Zəngəzur ərazilərini görənlər dəhşətə gəldilər. Otuz ilə yaxın davam edən işğal müddətində həmin yerlərdə daş üstə daş qoyulmayıb.

Eyni siyasəti ermənilər Qərbi Azərbaycanda da həyata keçiriblər. Son illərdə təkcə qədim İrəvan şəhərində İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi, Zal xan məscidi, Dəmirbulaq məscidi, Sərtip xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər məscidi, Qantar (bazarı) karvansarası, Hacı bəyim hamamı, Hacı Əli hamamı, Axund Şeyxülislam hamamı və bir çox digər dini-tarixi abidələr məhv edilib. İrəvanda mövcud olan iki məscid - Hacı İmamverdi məscidi və Göy məscid isə Ermənistan tərəfindən fars məscidi adlandırılıb.

Ancaq düşmən unudur ki, nə qədər saxtakarlıqlara əl atsa da, faciələr törətsə də, heç vəchlə tarixin izlərini silə bilməyəcək, buna gücü yetməyəcək. Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə bunu diqqətə çatdırdı: "Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər". Dövlət başçısının vurğuladığı kimi, Qərbi Azərbaycanın bizim əzəli torpağımız olduğunu bir çox tarixi sənəd, xəritələr təsdiqləyir.

Azərbaycan xalqı ədalətin bir gün Qərbi Azərbaycanda da zəfər çalacağına inanır. Bu inamı, əminliyi Prezident İlham Əliyev belə ifadə etdi: "Gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Erməni fitnəsi o günlər yenidən iflasa uğrayacaq. Qərbi Azərbaycan torpaqları öz əzəli və əbədi sakinlərinə yenidən qucaq açacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

◆ İlin uğurlu yekunları





# "Şuşa ili"nin təntənəsi

## Ötən ili başdan-başa Zəfər zirvəmizin bayram coşqusu ilə qeyd etdik

*Əvvəli 1-ci səh.*

### Tariximizin Şuşa səhifəsi

Təsadüfi deyildi ki, 2020-ci il sentyabrın 27-də çıxdığımız Zəfər yürüşünün qalibiyyət zirvəsinin Şuşa olacağını Ali Baş Komandan hələ müharibənin gedişatında "Şuşasız bizim işimiz yarımçıq olar" deyərək igid döyüşçülərimizə çatdırmış, savaş parolunu vermişdi. Müzəffər Ali Baş Komandanın qətiyyəti və sərkərdə məharəti ilə cızdığı hərbi strategiyanı izləyən igid əsgərlərimiz cəmi 44 gün ərzində Şuşaya doğru canları, qanları ilə dağlarla, dərələrlə, meşələrlə, sıldırımlarla qəhrəmanlıq cığırını açmış, Zəfər yürüşünü noyabrın 8-də Şuşanın azadlığı ilə qürurla sonlandırmışdılar.

Azərbaycan tarixinin ən şanlı salnaməsinə çevrilən Şuşa zəfərini Şəhidlər xiyabanından xalqımıza müjdələyən və kövrələrək bütün dünyaya "Əziz Şuşa, sən azadsan!, Əziz Şuşa, biz qayıtmışıq!, Əziz Şuşa, biz səni dirçəldəcəyik!" bəyan edən qalib lider İlham Əliyev ötən qısa dövr ərzində Şuşanın tarixi əzəmətinin bərpası, mədəni inkişafı istiqamətində müstəsna işlərin görülməsi ilə bağlı mühüm qərarlar qəbul edib, göstərişlər verib.

Vətən müharibəsi bitdikdən cəmi iki ay sonra - 2021-ci il yanvarın 14-də Zəfər yolu ilə azadlığına qovuşan Şuşaya ilk tarixi səfərini edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu səfəri zamanı illərdir didərgin həyatı yaşayan Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstlərini də öz doğma yerlərinə qovuşduraraq, həm də Şuşanın milli ruhunun qayıdışına rəmzi işarə vurmuşdu.

### Qədim şəhərin yeni dirçəlişi

Şuşanın hərtərəfli inkişafının bünövrəsi hələ illər öncə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Ümummilli Liderin 1982-ci ildə Şuşaya 2 dəfə səfər edərək Vaqifin məqbərəsinin, Poeziya Evinin açılışında və orada keçirilən Vaqif Poeziya Günlərində iştirak etməsi xalqımızın, şuşalıların yaddaşında hələ də ən xoş xatirələr kimi qalıb. Ulu Öndər həmin tarixi səfərləri zamanı Şuşaya respublikanın görkəmli ictimai-siyasi xadimləri, eləcə də ailəsi ilə bərabər gəlmişdi. O zaman hələ çox gənc, cəmi 21 yaşı olan İlham Əliyev Ümummilli Liderin Şuşanın dirçəldilməsi, azərbaycançılıq məfkurəsinin inkişafı ilə bağlı həyata keçirdiyi mühüm işlərin şahidi olmuşdu.

Buna görə də Ali Baş Komandan olaraq Şuşanın işğaldan azad edilməsini İlham Əliyev bir nömrəli vəzifəsi hesab etdiyi kimi, azadlığından dərhal sonra tarixi şəhərimizin dirçəldilməsini də qurucu lider olaraq özünün prioriteti saymışdı.

Vətən müharibəsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq və bərpa işlərinə start verən Azərbaycan dövləti birbaşa ölkə rəhbəri İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında işğaldan azad edilmiş torpaqlar arasında ən genişmiqyaslı bərpa işlərini də məhz Qarabağın mirvarisi Şuşada aparmağa başlayıb.



İkiillik qısa zaman müddətində 10 dəfədən çox yolunu Şuşa şəhərindən salan dövlət başçısı qala şəhərimizdə böyük quruculuq işlərinə, genişmiqyaslı bərpa işlərinə start verib, burada görülən işlərin gedişatı ilə şəxsən tanış olub.

Prezident İlham Əliyevin Şuşaya hər tarixi səfəri zamanı mədəniyyət paytaxtımızın necə dirçəldiyini, simasının dəyişdiyini əyani görürük.

### "Şuşa hər birimizi özünə çəkir"

Təkcə 2021-ci ildə düz yeddi dəfə Şuşaya səfər edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Cıdır düzündə bayram tonqalı alovlandıraraq dostlara şadlıq, düşmənlərə gözdağı mesajı verdi. Zəfərdən sonra mədəniyyət paytaxtımızda ilk dəfə keçirilən "Xarıbülbül" Musiqi Festivalına, Vaqif Poeziya Günlərinə uğurlu start verən qalib lider Şuşada milli ruhun dirçəlişinin xoş xəbərini yetirdi.

Şuşanın tarixindəki əlamətdar günlərdən biri də 2021-ci ildə, müstəqil Azərbaycan dövlətinin 15 İyun - Qurtuluş Günündə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan - Türkiyə əlaqələrini ən yüksək zirvəyə çatdıraraq, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamaları oldu.

Tarixi Azərbaycan şəhərinin azadlığının ilk ad günündə - 8 Noyabrda da Müzəffər Ali Baş Komandan Şuşada idi. Həmin gün dövlət başçısı İlham Əliyev hərbçilər qarşısında çıxış edərək söylədi ki, bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır.

2021-ci il dekabrın 24-də Prezident İlham Əliyev 60 illik yubileyini qalib sərkərdə kimi qürur zirvəmiz Şuşada qeyd etdi.

Yubiley günündə dövlət başçısı onu da qürurla qeyd etdi ki, "Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olduğunu bir daha təsdiqləyir. Amma eyni zamanda hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm".



### Möhtəşəm tədbirlərin ünvanı

Başdan-başa "Şuşa ili"nin təntənəsində keçirdiyimiz 2022-ci ildə də dövlət başçısı İlham Əliyev öz dəyişməz ənənəsinə sadiq qalaraq mədəniyyət paytaxtımıza mütəmadi səfərlər gerçəkləşdirdi, Şuşada görülən işlərlə yerində tanış oldu, mühüm tədbirlərdə iştirak etdi.

Ötən il aprelin 21-də İlham Əliyev Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış oldu. Sözügedən avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Həmin gün Şuşa şəhərinə gələn Prezident İlham Əliyev əvvəlcə burada tullantıların idarə olunması poliqonunda gedən işlərlə, sonra isə şəhərdə inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış oldu.

Növbəti gün qalib lider İlham Əliyev xalqımızı Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər qurultayından salamladı. Azərbaycanın zəfəri ilə bitən Vətən müharibəsində bir amal ətrafında tarixin heç bir dönəmində olmadığı kimi birləşərək həmrəy olan dünya azərbaycanlılarının bu qurultayının da məhz Şuşada keçirilməsinin rəmzi mənası var idi.

Tarixi qurultayda çıxış edən Prezident İlham Əliyev söylədi ki, biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının qurultayını keçiririk: "Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır".



270 illik əzəmətli tarixə malik qala şəhərimiz getdikcə təkcə Azərbaycanın deyil, Qafqazın mədəni və diplomatik mərkəzinə çevrilir. Azadlığının üzərindən çox qısa müddət ötməsinə baxmayaraq, qədim şəhərimiz beynəlxalq tədbirlərə, festival, forum və konfranslara müvəffəqiyyətlə evsahibliyi edir.

Mədəniyyətimizin paytaxtında gerçəkləşən belə mühüm tədbirlərdən biri də martın 18-də Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı idi. Azərbaycan parlamentinin komitə iclaslarının da Şuşada keçirilməsi 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi zəfərin möhtəşəm nəticələrindəndir.

Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransında iştirak edən dövlətlərin parlament nümayəndə heyətləri də dəyişilməz ənənəyə sadiq qalaraq mayın 18-də yollarını Azərbaycanın mədəniyyət paytaxtından saldılar.

Ötən ilin iyun ayında Bakıda keçirilən növbəti "Formula-1" Azərbaycan Qran-prisi kubokunun qədim şəhərimiz Şuşanın 270-ci ildönümünə həsr olunması da buna daha bir möhtəşəm nümunə oldu. Zəngin irsimizin elementlərini özündə birləşdirən yarışın rəsmi mükafatı Azərbaycanın əzəli torpaqlarına - Şuşaya qovuşması və "Şuşa ili" münasibətilə şəhərin ən qədim abidələrindən sayılan Yuxarı Gövhər ağa məscidinin minarələrinin elementlərini əks etdirdi.

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən nümayəndə heyətlərinin üzvlərinin iyulun 2-də Şuşaya səfər etmələri Zəfər qalamızın qlobal əməkdaşlıq platformasına çevrilməsinin daha bir təntənəli nümayişi idi.

### Ulu Öndərin xatirəsinə ehtiram

Mədəniyyət paytaxtımızda Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tarixi, dini irsimizin, memarlıq abidələrinin bərpası istiqamətində mühüm işlər gerçəkləşdirir.

Ötən il mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada səfərdə olarkən şəhərdə aparılan quruculuq-bərpa işləri ilə yerində tanış oldular.



Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşadakı inzibati binada, Şirin su hamamında, məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evdə, Mehmandarovların malikanə kompleksində fond tərəfindən aparılan bərpa işləri ilə də tanış oldular.

Dövlət başçısı və xanımı sözügedən tarixdə Şuşaya səfər çərçivəsində "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazidə də oldular, burada aparılan təmir-bərpa işləri haqqında məlumat aldılar.

Onu da bildirək ki, 2021-ci ilin mayında Şuşada "Xarıbülbül" hotelinin, həmin hotelin nəzdindəki 48 mənzilli korpus və kotteclərin, avqustda isə "Qarabağ" hotelinin yenidənqurmadan sonra açılışı olub.

Mayın 10-da Prezident İlham Əliyev Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə tanış oldu, eləcə də "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etdi.

Prezident İlham Əliyevin məhz mayın 10-da, vaxtilə Şuşanın dirçəlişinin təməlini qoyan Ulu Öndər Heydər Əliyevin doğum günündə Qarabağımızın baş tacına səfər etməsi həm də Ümummilli Liderin əziz xatirəsinə dərin ehtiramın təcəssümü idi.

Həmin gün dövlət başçısı xalqa müraciətində söylədi ki, "Bu gün mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq.

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

2021-ci ildə Prezident İlham Əliyevin sərəncamına əsasən, Şuşa mədəniyyət paytaxtımız elan edilərkən şəhərin ənənəvi dolğun mədəni həyatına qovuşması da başlıca məqsədlər kimi müəyyənləşdirilmişdi. Bu tarixi qərardan dərhal sonra mədəniyyət paytaxtımızda ənənəvi mədəni həyat öz məcrasına düşdü. 12-14 may tarixlərində keçirilən beynəlxalq statuslu "Xarıbülbül" festivalı da zəfərdən sonra ikinci dəfə dünyaya səs saldı. Müxtəlif ölkələrdən gələn folklor kollektivləri festivalda möhtəşəm çıxışlar etdilər, Qarabağın mirvarisində mədəniyyət bayramı yaşandı.

Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Prezident İlham Əliyevin sərəncamı ilə elan edilən "Şuşa ili"ndə keçirilən möhtəşəm V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışında dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak etdilər.

### Müqəddəs torpaq

Zəfərimizin qürurlu ikinci ildönümündə, Şuşanın azadlıq günündə də Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın uca qalasında, Zəfər zirvəsində idi.

Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyevlə birgə Şuşaya yollanan qalib lider İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə hərbçilər qarşısında çıxış edən zaman bildirdi ki, "...Müharibə dövründə çoxsaylı müsahibələrdə mən müharibənin gedişatı ilə bağlı bəzi məqamları açıqlayırdım. Təbii ki, hər şeyi deyə bilmirdim. Xüsusilə gələcək planlar haqqında bir çox şeyləri deyə bilmirdim. Verilən suala cavab olaraq cəmi bir dəfə demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq".

Həmin çıxışında dövlət başçısı bir daha Şuşanın Azərbaycan xalqının, şəxsən onun - Şuşanın xilaskarının qəlbində hansı zirvədə olduğunu da dilə gətirdi: "Əminəm, Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir".

Bəli, ölkənin ən ali şəxsinin ürəyində müstəsna yeri olan Şuşa birbaşa dövlət başçısı İlham Əliyevin xüsusi diqqəti və nəzarəti altında gündən-günə dirçəlir, tarixi əzəmətini, milli ruhunu, şöhrətini özünə qaytarır.

Ötən illərdə olduğu kimi, bu il də Şuşada bayram ab-havası davam edəcək. Qarabağımızın baş tacı, Zəfər simvolumuz Şuşa 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı kimi tarixi missiyanı da qürurla yerinə yetirəcək.

Bir sözlə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun qazandığı parlaq Zəfər sayəsində hər günümüzü Şuşa qələbəsinin fəxarəti, Şuşa qürurunun təntənəsi ilə keçiririk və bu, əbədiyyətədək belə olacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## İstəyirlərsə aksiyanı dayandıraq, tələblərimizi yerinə yetirsinlər

**Ermənilərin apardıqları təcavüzkar siyasət, bir milyondan çox soydaşımızın öz dədəbaba torpaqlarından didərgin salınması, Xocalıda, Kəlbəcərdə və digər işğal olunmuş rayonlarda azərbaycanlıların başına gətirilən qanlı, insanlığa sığmayan faciələr xalqımızın qan yaddaşına yazılıb.**




Hər gün ailələlərində, oxuduqları məktəblərdə vərəqlənən qanlı günlərin tarixləri, xalqımıza qarşı törədilmiş vəhşiliklər gənclərin vətənpərvərlik hissi ilə yanaşı, qisas hissini körüklədi, torpağa, vətənə bağlılıq hisslərini daha da artırdı. Bir gün də olsun Qarabağı görməyən gənclərimiz özləri ilə birlikdə Qarabağ dərdini də böyütdülər. Ermənilərin növbəti azğınlıqları, 27 sentyabr 2020-ci ildə torpaqlarımıza növbəti təcavüzü xalqın səbr kasasını daşdırdı. Xalq bir yumruğa dönüb qəzəb püskürdü. Gənclərimiz müharibə xəbərini alıb hərbi səfərbərlik idarələrinin qarşısına axışdılar. Vətən uğrunda döyüşə getmək üçün böyük növbələr yarandı. Hətta bir ailədən iki, üç qardaş düşmənə dərs vermək üçün döyüşə yollandı. Analar oğullarının arxasınca göz yaşı yox, su səpdilər. Oğulları Azərbaycan bayrağına bükülüb gələn analar isə Qarabağda qazanılan Zəfəri eşidib Tanrıya şükür etdilər. İtirdikləri oğullarının təsəllisini işğaldan azad olunmuş Vətən torpaqlarında tapdılar. Təki Vətən sağ olsun dedilər. Xalqımız bayraqlaşan, vətənləşən, müqəddəsləşən şəhid övladları ilə qürur duydu.

Bu gün vətəni qorumaq, onun şərəfini uca tutmaq estafetini qəbul etmiş Azərbaycan gəncləri, vətənpərvərlər yenə də ayaqdadırlar. Şəhid qanı ilə suvarılmış, son anda gözlərini əbədi yumarkən torpağı qucaqlayıb, "Vətən sağ olsun deyən" igidlərimizin əmanətlərini qoruyur, haqq işi uğrunda əzmlə, mətanətlə mübarizə aparırlar. Çünki bilirlər ki, ermənilər revanşist yolu tutub yenə silahlanmağa çalışırlar. Yurdumuzda talançılıq edib, faydalı qazıntılarla zəngin olan torpaqlarımızda, "Dəmirli" və "Qızılbulaq" yataqlarında qeyri-qanuni qazıntılar aparıb sərvətimizi talayır, bəd niyyətlərini həyata keçirmək istəyirlər. Amma yanılırlar. Görünür, 44 günlük müharibədəki ağır məğlubiyyət düşmənin yaddaşında da ciddi problem yaradıb. Unudurlar ki, vətən sevgisi estafetini indi bu torpaqları 30 illik işğaldan azad etmək üçün ölümün üstünə yeriyən, canlarını o torpaqlarda fəda etmiş qəhrəmanların ardıcılları, mübariz Azərbaycan gəncliyi qəbul edib.

Belə gənclərimizlə telefon əlaqəsi zamanı onlardan biri - Azərbaycan Könüllü Təşkilatları İttifaqının üzvü Səlimə Salmanlı dedi ki, çıxdığımız bu yolda öldü var, döndü yoxdur. Biz haqq işimiz uğrunda buradayıq. Biz 30 il torpaqlarımızı talan edən, yurdumuzu xarabazara çevirən, Qarabağı ölü zonaya çevirən insan cildinə girmiş quduzlarla, talançılarla mübarizə aparırıq. Havaların soyuq, qarlı, şaxtalı keçməsinə baxmayaraq, davam edən dinc aksiyamıza hər gün yeni könüllülər qoşulur və əhatəmiz daha da böyüyür. Biz Azərbaycanın təbii sərvətlərini qorumalıyıq. Heç bir qüvvə bizi buradan uzaqlaşdıra bilməz. Gənclərimiz əsl əzmkarlıq göstərirlər. Bu torpaqlar bizə şəhidlərimizin əmanətidir. Əgər biz ermənilərin yurdumuzda talançılıq etməsinə biganə yanaşsaq, şəhidlərimizin ruhuna xəyanət etmiş olarıq. Nəinki gündüzlər, hətta gecələr də "Ekoloji cinayətə son!" və müxtəlif şüarlar səsləndiririk. Azərbaycan könüllülərinin tələbləri ilk gündən olduğu kimi, dəyişməz olaraq qalır.

Söhbətimizi Azərbaycan Könüllü Təşkilatları İttifaqının üzvü Aydan Abbasova ilə davam etdiririk:

- Bu gün dinc aksiyamızın 27-ci günüdür. Hava şəraitinin soyuq olmasına baxmayaraq, əhvali-ruhiyyəmiz yaxşıdır. Məqsədimiz ekoloji tarazlığı qorumaq, təbii sərvətlərimizin qanunsuz talanmasının qarşısını almaqdır. Biz yolu bağlamamışıq. İstəyimiz odur ki, monitorinq qrupu qanunsuz istismar edilən yataqlara daxil olsun. Nəyə görə sərvətlərimiz qanunsuz talan edilib Ermənistana daşınmalıdır. Ermənilər bu torpaqlarda qalıb bizimlə birgə yaşamaq istəyirlərsə, qanunlarımıza əməl etməlidirlər. Nəcibliyimizdən, humanistliyimizdən sui-istifadə etməməlidirlər. Onlara humanitar məqsədlər üçün verilmiş bu yoldan təcavüzkar niyyətlərini həyata keçirmək üçün istifadə etməməlidirlər. Yenidən qan tökmək üçün bu yolla silah daşımağa çalışırlar. 30 ildə işğal etdikləri ərazilərdə daş üstə daş qoymayıblar. Bir dənə də olsun salamat bina saxlamayıblar. Nəinki evləri, tikililəri, hətta qəbiristanlıqları da dağıdıblar. Bu vəhşilikləri edən, əsirləri diri-diri torpağa basdıran, ana bətnindəki körpəni çıxarıb payaya keçirən bu vəhşilər etdiklərindən utanmaqdansa "humanitar böhrandan" danışırlar. Onlara deyirik: siz simanızı Xocalıda köməksiz insanları qətlə yetirərkən itirmisiniz. Özünüzü dünyaya yazıq görkəmində göstərməyə cəhd etməyin. Dünya sizin üzünüzü Xocalıdan tanıyır.

Söhbətə qoşulan Azərbaycan Könüllü Təşkilatları İttifaqının digər üzvü Nərgiz Əlimirzə dedi:

- Burada olmağımızın, aksiyamızın tək məqsədi torpaqlarımızda təbii sərvətlərimizin qanunsuz istismarının qarşısının alınmasıdır. Biz artıq 27 gündür ki, dinc aksiyamızı gecə və gündüz müxtəlif şüarlar səsləndirməklə davam etdiririk. Tələbimiz yerinə yetirilənədək belə olacaq. Onu da qeyd edim ki, bir gün, bir saat da olsun humanitar məqsəd üçün istifadə edənlərə yolu bağlamamışıq. Hər gün buradan humanitar məqsədlər üçün onlarca maşın müxtəlif istiqamətdə hərəkət edir. Ermənilər yalan təbliğat aparırlar ki, "blokadadırlar". Buradan Xankəndi ovuc içi kimi görünür. Blokadadırlarsa, yanacaqdoldurma məntəqələri necə işləyir? Növbə belə gözləmirlər. Bəlkə Xankəndidə yerdən neft çıxır? Hər işləri qaydasınca gedir. Bunlar özlərini yazıq göstərməyə vərdiş ediblər. İşləməyib dilənmək onların adətidir. Orada yaşayan ermənilər bizim aksiyamızdan istifadə edib erməni lobbisindən "blokadada qalmışıq" deyib pul alırlar. Ermənistan iqtisadiyyatı deyilən bir şey yoxdur. Ermənilər bütün dövrlərdə erməni lobbisinin ianəsi hesabına dolanıblar. İndi də yenə dünyaya car çəkib "humanitar böhran" adı ilə pul yığırlar. Budur, onların sifəti. Biz tələblərimizdə qətiyik. Bizi buradan nə erməni hiyləsi çəkindirə, nə də soyuq qorxuda bilər. İstəyirlərsə aksiyanı dayandıraq, tələblərimizi yerinə yetirsinlər.

***"Azərbaycan"***

## İradəmizi qırmaq mümkün deyil

**Şuşa qələbəmizin, vətən sevgisinin, milli qürurumuzun rəmzidir. Şuşa Azərbaycan gəncliyinin fədakarlığının mübarizə meydanıdır. İki il bundan əvvəl keçilməz zirvələri aşaraq qəhrəman oğullarımızın iz saldıqları Zəfər yolundan keçib Şuşaya gedən hər bir insanın canında mübarizlik ruhu daha da alovlanır. 27 gündür Şuşa Azərbaycan gəncliyinin prinsipiallığına, vətən sevgisinə, əzmkarlığına şahidlik edir.**




Erməni vandallarının torpaqlarımızda təbiətimizə, sərvətlərimizə vurduqları ziyan, Qarabağda hələ də talançılıq niyyətlərindən əl çəkə bilməmələri Azərbaycan gəncliyinin qəzəbinə səbəb olub. 27 gündür ki, gənclərimiz gecələrini gündüzlərinə qataraq düşmənin "Qızılbulaq" və "Dəmirli" faydalı qazıntı yataqlarının qanunsuz istismarı nəticəsində ətraf mühitə vurulmuş ziyana, təbiətin amansızlıqla məhv olmasına etiraz edərək fasiləsiz etiraz aksiyası keçirirlər. Erməniləri əllərində oyuncaq edib, yaxud ermənilərlə birləşib sərvətimizi talan edənlər, təbiətimizi məhv edənlər, "humanitar böhran"deyib dünyaya səs salanlar anlamaq istəmirlər ki, bu aksiyada gənclərimizin olduqca sadə bir tələbi var: qanunsuz istismar olunan "Dəmirli" və "Qızılbulaq" yataqlarında mütəxəssislərin monitorinq aparmaları üçün şərait yaradılsın .

Bunu dünyada bilməyən yoxdur ki, hələ sovet dövründə Ermənistan SSRİ-dən aldığı dotasiya hesabına dolanıb. Heç bir yeraltı və yerüstü sərvəti olmayan, bu ələbaxan respublika "müstəqillik" əldə etdikdən sonra da dünyaya səpələnmiş erməni lobbisinin yardımları hesabına yaşayıb. Qarabağı işğal etdikləri dövrdə isə təbii sərvətlərimizi talamaqla məşqul olub. 44 günlük Vətən müharibəsindən sonra da ermənilər köhnə vərdişlərindən əl çəkməyiblər. Belə ki, torpaqlarımızda bəd niyyətlərini həyata keçirərək onlara humanitar məqsədlər üçün verilmiş Laçın yolu ilə sərvətlərimizi talayıb Ermənistana daşıyıblar. Ermənilərin bu qanunsuz hərəkətləri, etdikləri özbaşınalıqlar vətənpərvər gənclərin haqlı etirazına səbəb olubdur. Bakıdan yüzlərlə vətənpərvər gənc, QHT, media nümayəndəsi Şuşaya gedərək Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində etiraz aksiyasına start veriblər.

Aksiyanın məramı əvvəlki kimi dəyişməz olaraq qalır. Etirazçılar tələb edirlər ki, Azərbaycanın faydalı qazıntı yataqlarının erməni separatçıları tərəfindən qanunsuz istismarı dərhal dayandırılsın. Gənc vətənpərvərlər öz məram və məqsədlərini rus və ingilis dilində yazılmış plakatlarda da olduqca aydın, başadüşülən şəkildə ifadə ediblər: "Sərvətlərimizin talanı dayansın!", "Təbiəti qoruyaq, istismarı qınayaq!", "Təbiətin milləti yoxdur!", "Azərbaycan milləti qoruyacaq sərvətini!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Sərvətimiz bölünməz, heç bir kəsə verilməz!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!"

Xatırladaq ki, ermənilərin və erməni məkrinə himayədarlıq edənlərin iddia etdikləri kimi aksiya iştirakçıları yolu bağlamayıblar. Heç bir zorakılıq hərəkətlərinə yol verməyiblər. Aksiya keçirilən yolda hər gün istər sülhməramlılara, istərsə də Beynəlxalq Qızıl Xac Təşkilatına məxsus avtomobillər sərbəst şəkildə hərəkət edirlər. Bəs onda erməniləri və onları dəstəkləyənləri narahat edən əsas səbəb nədir? Sualın cavabı aydındır: ilk növbədə revanşist, separatçı qüvvələrin Laçın yolu ilə Xankəndiyə girişinin qarşısı alınıb. İqtisadiyyatı reanimasiyada yatan xəstə halında olan Ermənistan Qarabağda faydalı qazıntılarımızı talan edib daha daşıya bilmir. Ermənistandan Qarabağa silah keçirməyin qarşısı alınır.

Azərbaycan dövləti Ermənistanın ölkəmizə qarşı etdiyi bütün pisliklərə qarşı səbr, təmkin göstərib. Eyni zamanda Azərbaycan hər zaman erməniləri qayda-qanunlara əməl etməyə, nizam-intizama dəvət edib. Qan tökülməməsi üçün bütün vasitələrdən istifadə edib. Bu gün güya Laçın yolunun bağlanması və ərazidə yaşayan erməni sakinlərin humanitar böhran təhdidi ilə üzləşdikləri barədə erməni siyasətçilərinin və onlara dəm tutan "vasitəçi" dövlət başçılarının iddialarının heç bir əsası yoxdur. Vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekoloji fəalların keçirdikləri bu aksiya Azərbaycan ictimaiyyətinin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizdə həyata keçirilən qeyri-qanuni fəaliyyətə, təbii sərvətlərin talanmasına və ekologiyaya dəyən zərərə haqlı narazılığının ifadəsidir. Ermənistan Xarici İşlər Nazirliyi dəfələrlə bu dinc aksiyaya siyasi don geyindirmək və onu təhrif etməyə cəhd edib. Məmnunluqla qeyd edək ki, ermənilərin etdikləri bu cəhdlər hər dəfə fiaskoya uğrayır .

Bu gün gənclərimiz qətiyyətlə, şərtləri qəbul olunana qədər aksiyanı davam etdirəcəklərini bildirirlər. Nə soyuq, nə Rusiya sülhməramlılarının komandanı general Andrey Volkovun biganə münasibəti etirazçı gəncləri haqq yolundan çəkindirə bilmir. Əksinə, hər gün yüzlərlə gənc Şuşaya gəlib vətənpərvər gənclərlə həmrəy olduqlarını bildirirlər. İstər ermənilər, istərsə də Rusiya sülhməramlılarının komandanı gənclərin öz prinsiplərindən geri çəkilməyəcəklərini daha tez anlayıb, şərtlərini qəbul etsələr, bir o qədər özlərinə hörmət etmiş olarlar. Aksiya iştirakçısı Azərbaycan Könüllü Təşkilatları İttifaqının üzvü Sevinc Məmmədli bizimlə söhbəti zamanı aksiya iştirakçılarının qətiyyətini belə ifadə etdi:

- Artıq dinc aksiyamızın 27-ci günüdür. Havanın soyuq olmasına baxmayaraq, əhvali-ruhiyəmiz yüksəkdir. Bizim tələblərimiz ekoloji tarazlığı qorumaq, təbii sərvətlərimizin qanunsuz talanmasının qarşısını almaqdır. Biz quldur, yolkəsən deyilik. Əksinə, ermənilər yolumuzu kəsib faydalı qazıntılarla zəngin olan, qanunsuz istismar etdikləri yataqlarımızda monitorinq aparmağa imkan vermirlər. Bircə şeyi unudurlar ki, cəmi iki il öncə qəhrəman oğullarımız bu yerlərdə necə fədakarlıq ediblərsə, onların davamçısı olan bizlər də prinsiplərimizdə qəti, niyyətimizdə qərarlıyıq. Tələblərimiz yerinə yetirilənə qədər buradan ayrılmayacağıq. İradəmizi nə soyuq, nə biganəlik, nə də ki erməni kələyi qıra bilməz.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Sülhməramlılara aid minik avtomobilləri aksiya ərazisindən sərbəst keçiblər



Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda təşkil olunan aksiya ərazisindən sərbəst keçirlər.

AZƏRTAC xəbər verir ki sülhməramlılara aid avtomobillərin Xankəndidən Laçın istiqamətinə doğru hərəkətinə şərait yaradılıb.

Bu, bir daha onu göstərir ki, ərazidə hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin olunur. Heç də siyasi xarakter daşımayan aksiya humanitar məqsədlərə xidmət edir.

Qeyd edək ki, Qarabağda "Qızılbulaq" və "Dəmirli" faydalı qazıntı yataqlarının qanunsuz istismarı nəticəsində ətraf mühitə vurulmuş ziyanın monitorinqinin aparılmasına icazə verilməsini tələb edən azərbaycanlı ekoloqların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və fəallarının ötən il dekabr ayının 12-dən Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası 27 gündür davam edir.



# İŞİMİZ, GÜZƏRANIMIZ



## Kiçik biznesə böyük etimad

### KOB-lara dəstək mexanizmi genişlənir və təkmilləşir

**Azərbaycanda sayca 3-cü olan KOB evi - "Bakı KOB evi" istifadəyə verildi. Paytaxtın Nərimanov rayonunda yerləşən bu növbəti KOB evinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi hadisənin önəminə diqqət yönəldir.**

Kiçik və orta biznesin Azərbaycan iqtisadiyyatının inkişafına verdiyi töhfənin öz yeri, öz əhəmiyyəti var. Belə ki, indi respublikanın müxtəlif şəhər və rayonlarında yüzlərlə kiçik və orta sahibkar çalışır ki, onların da iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafında rolu getdikcə artır.

Azərbaycanda biznesin mütləq əksəriyyətini - 99,6 faizini mikro, kiçik və orta sahibkarlıq təşkil edir. 2021-ci ilin nəticələrinə əsasən, qeyri neft-qaz sektoru üzrə yaradılmış əlavə dəyərdə KOB-ların payı 27,5 faiz olub. KOB-ların qeyri-neft ixracında payı 2020-ci ildəki 31,8 faizdən 2021-ci ildə 59,8 faizə yüksəlib. Bu kateqoriyadan olan bizneslərin dövriyyəsi 2021-ci ildə 20 milyard dollara yaxın olub və ölkə üzrə biznesin ümumi dövriyyəsinin 32 faizdən çox hissəsini, qeyri-neft ÜDM-nin isə 56,5 faizini təşkil edib.

Məhz buna görə də dövlət sahibkarlıq fəaliyyətini dəstəkləyir, sahibkara hərtərəfli dəstək göstərir. Belə ki, Azərbaycanın davamlı iqtisadi inkişafının təmin edilməsində sahibkarlığın, xüsusilə kiçik və orta biznesin rolunun artırılması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən biridir. Ölkədə özəl sektorun inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlərin davamı olaraq dövlət başçısının 28 dekabr 2017-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb.

KOBİA sahibkarlara informasiya, məsləhət, təlim-tədris, maraqların müdafiəsi, bazarlara və maliyyə resurslarına çıxışın yaxşılaşdırılması, dövlət və özəl qurumlarla əlaqələndirmə və digər istiqamətlərdə dəstək və xidmətlər göstərir. Bu dəstək və xidmətlər KOBİA-nın ölkənin müxtəlif şəhər və rayonlarını əhatə edən geniş infrastruktur şəbəkəsi - KOB dostları, KOB inkişaf mərkəzləri və KOB evləri vasitəsilə həyata keçirilir. KOB inkişaf mərkəzləri KOB-ların biznes biliklərini artırmaq üçün ödənişsiz olaraq informasiya, məsləhət, təlim və biznes-planın hazırlanması xidmətlərini təklif edir. Ölkənin regionlarında KOB-ların maraqlarının müdafiəsi, lazımi dəstək və xidmətlərə çıxışı 38 şəhər və rayonda fəaliyyət göstərən "KOB dostu" şəbəkəsi vasitəsilə reallaşdırılır.

Kiçik və orta bizneslə bağlı indiyədək çoxsaylı fərman və sərəncamlar, digər sənədlər də imzalanıb. Məlum olduğu kimi, sahibkarlıq fəaliyyətinə böyük dəstək göstərəcək daha bir sənəd - "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" yeni qanun layihəsi işlənib hazırlanmışdır. Layihə Milli Məclisdə artıq iki oxunuşdan keçib. Bu, sahibkarlıq fəaliyyətinin daha da genişlənməsi və keyfiyyətcə yüksəlməsi üçün olduqca əhəmiyyətli addımdır. Sənəddə mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, subyektlərin rəqabətqabiliyyətliliyinin artırılması, investisiya və innovasiya fəallığının stimullaşdırılması nəzərdə tutulur. Onlara göstərilən xidmətlərin və dövlət dəstəyinin səmərəliliyinin artırılması, eləcə də dəstək infrastrukturunun bütün mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün əlçatanlığı önə çəkilir.

Qanun layihəsi 5 fəsildən və 15 maddədən ibarət olub mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində münasibətləri tənzimləyir, sahibkarlıq subyektlərinə göstərilən dövlət dəstəyinin təşviqinin forma və metodlarını müəyyən edir. Sənəddə mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində qanunvericilik, dövlət siyasətinin məqsədləri, prinsipləri və əsas istiqamətləri, sahibkarlıq subyektlərinə dəstək göstərilməsinin şərtləri, formaları, qaydası və qiymətləndirilməsi ilə bağlı maddələr təsbit olunub. Burada eləcə də dövlət maliyyə dəstəyi, məsləhət və informasiya dəstəyi, subyektlərin innovasiya, məhsul istehsalı və xidmət sahəsində dəstəklənməsi və digər məsələlərlə əlaqədar maddələr özünə yer alıb.

Yeni dövrün çağırışlarına uyğun olaraq KOB mühitinin inkişafı baxımından yeni qanun layihəsinin əhəmiyyəti keçən ilin sonunda Bakıda keçirilən "Kiçik və Orta Bizneslərin Beynəlxalq Şəbəkəsinin - INSME - 18-ci İllik Toplantısı" mərasimində də qeyd olunub. Qabaqcıl beynəlxalq təcrübələr nəzərə alınmaqla hazırlanan bu sənədin KOB sektorunun inkişafının və dövlətin dəstək tədbirlərinin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsinə xidmət edəcəyi vurğulanıb. KOBİA və Kiçik və Orta Müəssisələr üçün Beynəlxalq Şəbəkənin (INSME) prezidenti Serdjio Arzeni deyib: "Sahibkarlıq və KOB-ların inkişafı siyasətindən başqa, rəqabət qabiliyyətinin və KOB-larda çalışanların bilik və bacarıqlarının artırılması siyasəti həddən çox vacibdir. Biz Azərbaycanda KOB-lara ünvanlanan siyasəti gücləndirmək istəyirik. İqtisadi şaxələndirmə sahəsində inkişaf önəmlidir".

KOB evləri də elə bu mühüm məqsədlərə xidmət edir. Onlar sahibkarlara dövlət və biznes xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edildiyi vahid məkandır. Burada xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Biznes xidmətlərinin bir məkanda toplanması, vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir.

Hazırda fəaliyyət göstərən Xaçmaz və Yevlax KOB evləri indiyədək sahibkarlara öz işlərində böyük dəstək verib. Burada onlara 170 mindən çox xidmət göstərilib ki, həmin xidmətlərin 165 mindən çoxu dövlət-biznes, 9 minə yaxını isə biznes-biznes xidmətləridir. Sahibkarların KOB evlərinin xidmətlərindən məmnunluq göstəricisi 98 faizdir.

Yeni "Bakı KOB evi" isə 11 min 262 kvadratmetr sahədə yerləşir. Üçmərtəbəli binanın ilk iki mərtəbəsində sahibkarlara xidmət göstəriləcək. Sonuncu mərtəbə işçi heyət üçün nəzərdə tutulub. "Bakı KOB evi"nin gün ərzində 5 min sahibkara xidmət göstərmək imkanı var. Binada görüş, təlim, startap, mediasiya otaqları və konfrans zalı da sahibkarların xidmətində olacaq.

"Bakı KOB evi"ndə sahibkarlara 29 dövlət qurumu tərəfindən 150-dən çox, 20 özəl qurum tərəfindən isə 100-dən çox adda xidmətlər göstəriləcək. Sahibkarlar fəaliyyət üçün zəruri olan biznesin qeydiyyatı, lisenziya və icazələrin alınması, biznes-planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, kommunal xidmətlərə qoşulma, bank, sığorta və digər məsələlərlə bağlı "Bakı KOB evi"nə müraciət edə bilərlər. Bununla yanaşı, "Bakı KOB evi"ndə yaradılmış Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında gömrük və idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər də təqdim ediləcək.

Həyata keçirilən bu ardıcıl tədbirlərlə - kiçik və orta sahibkarlığın əhatə dairəsinin genişləndirilməsi, yeni daha səmərəli və ünvanlı dəstək mexanizminin yaradılması ilə ölkədə biznes mühitinin inkişafı daha da sürətlənəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ünvanlı sosial yardımların da məbləğinin artacağı gözlənilir

**2023-cü il üçün ehtiyac meyarının həddi ötən ilə nisbətən 23 faiz artırılmaqla 246 manat müəyyən olunub ki, bu artımla ünvanlı yardımların da məbləği artacaq.**




Ailənin orta aylıq gəliri ailə üzvlərinin hər biri üzrə ehtiyac meyarının cəmindən aşağı olduqda həmin ailəyə arada yaranan fərq qədər yardım təyin olunur. Beləliklə, ehtiyac meyarının artması aztəminatlı ailələrə təyin olunan ünvanlı yardımın da artmasına səbəb olur.

Ümumilikdə ünvanlı sosial yardımların bir ailəyə düşən orta aylıq məbləği 2022-ci ilin müvafiq göstəricisi ilə müqayisədə bu il 36 faiz artaraq təxminən 535 manat olacağı gözlənilir.

## Keçən il qeyri-neft məhsullarının ixracı 10,3 faiz artıb

**Cari ilin yanvar-dekabr aylarında Azərbaycanın qeyri-neft məhsullarının ixracının dəyəri 3 milyard dollara yaxın olub.**




İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) verdiyi məlumata görə, 2022-ci ildə ölkə üzrə ixrac olunan qeyri-neft məhsullarının dəyəri 2 milyard 991,99 milyon ABŞ dolları təşkil edib. Bu, 2021-ci illə müqayisədə 10,3 faiz çoxdur.

Ötən ilin son rübündə isə Azərbaycanın ixrac etdiyi qeyri-neft məhsullarının dəyəri 875,22 milyon dollar olub ki, bu da III rübün göstəricisini 32,8 faiz üstələyib. Ötən ilin təkcə dekabr ayında qeyri-neft məhsullarının ixracının dəyəri 303,48 milyon dollara çatıb.

Xatırladaq ki, 2021-ci ildə Azərbaycanın ixrac etdiyi qeyri-neft məhsullarının dəyəri 2 milyard 713,4 milyon dollar olmuşdu.

## Fatih DÖNMƏZ: "Azərbaycan "Türk axını"nda iştirakçı ola bilər"

**"Azərbaycan "Türk axını" təbii qaz layihəsində iştirakçı ola bilər". KİV xəbər verir ki, bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz deyib.**



"Türkiyə təbii qazı 15 müxtəlif mənbədən alır. Azərbaycan, Rusiya və İran ən çox təbii qaz ehtiyatına malik ölkələrdəndir. Bir tərəfdən, Avropanın cənub-şərqində təbii qaz mərkəzi olmaq cəhdimiz var idi. Bolqarıstanda bağlanmış müqavilə ilə buna doğru ilk addım atmışıq".

Nazir əlavə edib ki, Xəzərin şərqindən, İraqdan və Şərqi Aralıq dənizindən gələcək qaz mənbələrini əlavə etmək olar. Bu mənbənin daxil olduğu nöqtədə bazarın və ticarətin formalaşması tamamilə təbiidir. Buna yerli qazı da əlavə etdikdə, Türkiyənin xeyli böyük qaz ehtiyatları olacaq: "Son aylar Bolqarıstanla bəzi texniki danışıqlar aparılıb. Üç həftə əvvəl Prezidentimiz (Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan-red) İstanbulda Bolqarıstanın nümayəndə heyətini qəbul etdi. Gündəmdə enerji və təbii qaz var idi. Bolqarıstan da bizim kimi enerji sahəsində xaricdən asılı ölkədir. Onlar alternativ mənbələr axtarırdılar".

Fatih Dönməzin sözlərinə görə, Türkiyənin infrastrukturu kifayət qədər güclüdür: "Anbarlarımızın tutumunu artırdıq. Söhbət ilk növbədə öz təchizat təhlükəsizliyimizdən, daxildə istehlak ediləcək qazın emalı və ötürülməsindən gedir. Rusiya ilə müqavilələrimiz illərdir davam edir. İlk tədarükçümüz Rusiya idi. Mərhum Özalın (Türkiyənin sabiq prezidenti Turqut Özal-red) hakimiyyəti dövründə imzalanmış sazişdir".

"Biz hakimiyyətə gələndə cəmi 5 böyük şəhərdə, 50 rayonda təbii qaz var idisə, bu gün 81 rayonu qazlaşdırmışıq. Qərbdən gələn xətt kifayət etmədi. "Mavi axın" Samsundan gəldi. Bundan sonra TANAP əlavə edildi. "Türk axını" iki boru kəməri istismara verib. Biri yalnız bizim üçün işləyir, digəri Bolqarıstan vasitəsilə Avropaya gedir. Azərbaycan, Rusiya, İran burada iştirakçı ola bilər. Çoxlu terminallarımız var. Biz burada bazar açırıq", - nazir qeyd edib.

## ARDNF 24 yaşına qədəm qoydu

### Ölkəmizdə neft kapitalı insan kapitalına çevrilib

**1999-cu il dekabrın 29-da Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) təsis edildi. Bir il sonra isə fondun əsasnaməsi təsdiq olundu.**



ARDNF neft və qazdan əldə edilən gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini və gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi qurumdur. Ötən 23 il ərzində o, institusional cəhətdən yüksək səviyyədə inkişaf etmiş beynəlxalq səviyyəli maliyyə təşkilatına çevrilib.

ARDNF ölkənin sosial-iqtisadi həyatında misilsiz əhəmiyyət daşıyır. Bu, real həyatda olduğu kimi, fakt və rəqəmlərdə də özünü aydın göstərir. Belə ki, 2022-ci il il oktyabrın 1-nə qədər Neft Fondunun ümumilikdə 130 milyard 32,3 milyon manat məbləğində vəsaiti ölkənin sosial-iqtisadi tərəqqisi istiqamətində mühüm məsələlərin həllinə və strateji əhəmiyyətli infrastruktur layihələrinin maliyyələşdirilməsinə yönəldilib, eləcə də dövlət büdcəsinə transfer edilib. Ötən müddətdə ARDNF-nin qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması məsələlərinin həlli ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə 2 milyard 702,7 milyon manat məbləğində vəsaiti istifadə olunub. Fond indiyədək Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsində Azərbaycanın iştirak payının maliyyələşdirilməsinə 297,9 milyon manat sərf edib.

2006-cı ildən başlayaraq neft gəlirlərinin bir hissəsi eyni zamanda su təchizatı ilə bağlı məsələlərin həllinə yönəldilir. Fondun maliyyələşdirdiyi layihələr sırasında Bakının su təchizatı ilə bağlı problemlərinin əsaslı şəkildə həllini təmin edəcək Oğuz-Qəbələ zonasından paytaxta su kəmərinin çəkilməsi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihələri mühüm yer tutur.

Bu vaxtadək Neft Fondu Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 748,6 milyon manat ayırıb. Fond tərəfindən 22,4 milyon manat məbləğində vəsait isə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilib. Fond indiyədək eləcə də "Cənub Qaz Dəhlizi" QSC-nin nizamnamə kapitalında dövlətin iştirak payının maliyyələşdirilməsinə 1 milyard 530,3 milyon manat ayırıb. SOCAR-ın Türkiyənin İzmir şəhərində inşa etdiyi "Star" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycanın iştirak payının maliyyələşdirilməsinə 1 milyard 663,3 milyon manat yönəldib.

Bu siyahını xeyli uzatmaq da olar və göstərilən tədbirlərin hərəsi ayrı-ayrılıqda bir həqiqəti aydın şəkildə sübut edir - Azərbaycan dövləti neft kapitalını insan kapitalına çevirə bilib!

*"Azərbaycan"*

## Abonentlər evdən çıxmadan "Azəriqaz"ın 8 xidmətindən yararlana bilərlər

**"Azəriqaz" İstehsalat Birliyinin həyata keçirdiyi yeniliklərdən olan elektron xidmətlər portalı haqqında məlumat verilib.**

Qurumun Müştəri xidməti şöbəsinin rəisi Fərid Mustafazadə yeni yaradılan portal vasitəsilə abonentlərin evdən çıxmadan "azeriqaz.az" saytında 8 xidmətdən yararlanaraq qaz təchizatında üzləşdikləri bəzi məsələlərin həllinə nail olacaqlarını bildirib. Şöbə rəisi elektron xidmətlər vasitəsilə ərizələrin qəbulu, sənədlərin yüklənməsi və son mərhələ sayılan müqavilələrin imzalanması kimi proseslərin həyata keçirilə biləcəyini də qeyd edib. Elektron xidmətlər haqqında daha ətraflı məlumatı isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndəsi İdrak Həsənzadə media nümayəndələri və tədbir iştirakçılarına təqdim edib.

İB-dən AZƏRTAC-a bildirilib ki, yeniliyin təqdimatından sonra birliyin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Eldəniz Vəliyev hər ilin əvvəlində aktuallığa çevrilən limitlərin yenilənməsi məsələsinə toxunub. Şöbə rəisi üçmərhələli limitlərin tətbiqindən bir ildən artıq vaxtın keçməsinə baxmayaraq, hələ də bəzi abonentlərin bundan xəbərsiz olduğunu və hesablama zamanı səhvlərə yol verdiyini vurğulayıb.

## Azərbaycan nefti bahalaşıb

**Dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 0,65 dollar (0,8 faiz) artaraq 84,6 dollar olub.**




Bu barədə Trend-ə neft bazarındakı mənbə məlumat verib.

Hərraclarda "Brent" markalı neftin mart fyuçersləri 78,57 dollara satılıb.

# Azərbaycanın pravoslav xristianları Milad bayramını qeyd ediblər

**Yanvarın 7-də pravoslav xristianlar İsa Peyğəmbərin mübarək mövludunu - Milad bayramını qeyd ediblər.**





AZƏRTAC xəbər verir ki, bu bayram yanvarın 6-dan - Müqəddəs axşamdan başlayır. Həmin gün pravoslavlar üçün 40 günlük pəhrizin sonuncu günü və Milad bayramına hazırlıq dövrüdür. Günəş batandan sonra ailənin bütün üzvləri masa arxasında toplaşırlar. İsa Peyğəmbərin həvarilərinin sayına uyğun olaraq süfrəyə 12 pəhriz yeməyi qoyulur və bu yeməklərin hər birindən mütləq dadmaq lazımdır. Masada canlı alov - şam yanır. Müqəddəs axşamın ən əsas yeməyi kutyadır. Adətən onu buğdadan hazırlayırlar. Amma üyüdülməmiş başqa yarmadan da istifadə etmək olar. Taxıl dənləri vahid bəşəriyyətin rəmzidir. Kutyada birləşdirici vasitə kimi bal və ya siropdan istifadə olunur. Bu şam yeməyi ilə Milad pəhrizi başa çatır. Yanvarın 7-də bütün yemək məhdudiyyətləri aradan qaldırılır və əsl bayram ziyafəti təşkil edilir.

Azərbaycanda pravoslav xristian icması hər il Milad bayramını qeyd edir. Xristianlığın Azərbaycanda çox qədim tarixi var. Təsadüfi deyil ki, Qafqazda ilk xristian məbədləri məhz ölkəmizdə yaranıb. Müxtəlif dinlərin nümayəndələri əsrlərboyu torpağımızda dinc yanaşı yaşayıb və insanlar arasında dostluq və qardaşlıq münasibətlərinin qurulmasında çox əhəmiyyətli rol oynayıb. Azərbaycanda heç vaxt milli və irqi zəmində ayrı-seçkilik, dini dözümsüzlük olmayıb. Digər konfessiyaların nümayəndələri kimi, xristianlar da cəmiyyətimizin tamhüquqlu üzvləridir, onun həyatında fəal iştirak edirlər. Ölkədə bir neçə pravoslav kilsəsi fəaliyyət göstərir.

Prezident İlham Əliyev hər il Azərbaycanın pravoslav xristian icmasını Milad bayramı münasibətilə təbrik edir. Təbrikdə deyilir: "Tarixən dostluq və qardaşlıq mühitinin, yüksək birgəyaşayış mədəniyyətinin hökm sürdüyü Azərbaycanda ayrı-ayrı xalqların və dini etiqadların nümayəndələri əsrlərlə sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Bu gün dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan və sivilizasiyalararası münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verən ölkəmizdə dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, hər kəs bərabər hüquq və azadlıqlara malikdir. Cəmiyyətimizdə yüz illər boyu təşəkkül tapmış mədəni müxtəlifliyin, yüksək humanizm prinsiplərinin, zəngin tolerantlıq ənənələrinin qorunub saxlanılması və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın digər etnik-dini qrupları kimi xristian həmvətənlərimiz də öz adət-ənənələrini, dil və mədəniyyətini yaşadaraq ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, respublikamızda gedən böyük inkişaf və quruculuq prosesində vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər".

Bununla əlaqədar yanvarın 6-dan 7-nə keçən gecə Azərbaycanın bütün pravoslav kilsələrində təntənəli ibadətlər yerinə yetirilib.

Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsində Bakı Yeparxiyasının katibi arximandrit Aleksi (Nikonorov) Milad ibadətindən əvvəl jurnalistlərə müsahibəsində deyib: "Bu gecə bütün pravoslav xristianlar, Şərq xristianları İsa Peyğəmbərin mövludunu bayram edirlər. Bu, xristianların səbirsizliklə gözlədikləri ən sevimli və uğurlu bayramlardan biridir. Bu günün nə demək olduğunu biz İncildə oxuyuruq. Lakin bu bayramın mahiyyətini anlamaqdan ötrü mələklərdən eşitdiyimiz sözlərə müraciət etmək lazımdır. Onların Milad gecəsi çobanlara tərənnüm etdikləri mahnıda bu sözlər yer alır: Göylərin Rəbbi olan Allaha həmd olsun, Yer üzündə sülh və insanlara mərhəmət olsun.

Milad bayramı həmişə sülhlə assosiasiya edilib. Lakin tarixə, İsa Peyğəmbərin doğulduğu dövrə, bu günə baxsaq görürük ki, Yer üzündə sülh həmişə az olub və az olaraq qalmaqdadır. Sülhə müharibələr, əhvali-ruhiyyə şərik çıxır. Biz istər-istəməz sual veririk: Bəs bu bayram nə gətirib, mahnı nə idi, mələklər sülhün əvəzində nə veriblər? Bu suala cavabı bizim ənənəmiz verir. Deyilir ki, sülhü insan hər şeydən əvvəl özündə, öz qəlbində axtarmalıdır. Bu sülhü insan öz yaxınlarına, əhatəsində olan hər kəsə arzulamalıdır. Əgər sülh eqoistlik üzərində qurulubsa, Yer üzündə sülh mümkün deyil. Buna görə də bugünkü bayramda mən hər kəsə təkcə özü üçün deyil, başqa insanlar üçün də sülh, ədalət axtarmağı arzu edirəm. Əziz həmvətənlər, bayramınız mübarək".

# Pandemiya ilə uğurlu mübarizənin nümunəsi

## Ötən il Azərbaycanda COVID-19-a qarşı keçirilən tədbirlər effektiv nəticə verdi

*Əvvəli 1-ci səh.*

İnsanların sağlamlıqları və həyatları ilə sınağa çəkilməsi, virtual ünsiyyətin daha çox artması və bütün sahələrdəki fəaliyyətin yeni çeşidli imkanlarla davam etdirilməsi bu başlanğıcdan meydana gələn əlamətlər idi.

Pandemiyanın başladığı ilk günlərdən dünya ölkələri artan yoluxmalar nəticəsində müxtəlif vaxtlarda fərqli mübarizə tədbirlərini həyata keçirdilər. Çində mərhələli qapanmalar, ABŞ-də testlərin poçt xidməti vasitəsilə insanlara sürətli və pulsuz çatdırılması və digər profilaktik işlər bu istiqamətdə həyata keçirilən tədbirlər arasında yer aldı. Müxtəlif ölkələr isə inkişaf etmiş dövlətlərin təcrübələrindən faydalanaraq tədbirlər planı hazırladılar.

### Mutasiyaya uğrayan virus

Ötən ilin ortalarında dünyada yoluxmaların sayında və ölüm hallarında azalmalar müşahidə edilməyə başladı. Bu, beynəlxalq səhiyyə qurumları tərəfindən ikiillik mübarizənin uğurlu nəticəsi kimi qiymətləndirildi. Lakin gözlənilməz anda xəstəliyə yoluxanların sayı yenidən artmağa və bəzi dünya ölkələrində mərhələli qapanmaların tətbiqinə başlanıldı.

Koronavirus pandemik xəstəliyə çevrilməyə başladığı zaman orqanizmə məlum olmayan infeksiya və ona qarşı bəşəriyyətin hazırlıqsız olması virusu olduqca təhlükəli hala gətirmişdi. Hazırlanan peyvəndlərdən sonra mutasiyaya uğramış koronavirusun meydana çıxan yeni ştamları və onların altnövləri qismən təhlükəni azaltmağa başladı.

Ümumilikdə 2022-ci ilin ən dominant mutasiyası olan Omikron qısa zaman ərzində yayılma arealını sürətlə genişləndirdi. Yüksək yoluxuculuğuna görə özündən əvvəlki bütün mutasiyaları qabaqlayan bu ştam hətta kütləvi immunitetin yüksək səviyyədə olduğu ölkələrdə belə Deltadan daha sürətlə yayıldı. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) nümayəndələrinin keçirdiyi mətbuat konfranslarında Omikronun dünyada sunami təsiri yarada biləcəyindən, ciddi qəbul edilməməsinin ağır nəticələrə gətirib çıxara biləcəyindən böyük narahatlıq hissi keçirdiyini də bildirmişdilər.

Pandemiyanın yavaş-yavaş aradan qalxmasını, karantin qaydalarının ləğvini, koronavirusdan öncəki həyata dönməyin sevincini bütün dünya yenicə yaşamağa başlamışdı ki, bir sıra ölkələrdə yoluxma sayı kəskin artmağa başladı. Hazırda ciddi təhlükə altında olan, yoluxma saylarının artdığı ölkələr arasında artımın ən çox sədaları Çindən gəlir. COVID-19-un sunami effekti ilə yenidən yayılması ilə əlaqədar ÜST dünya əhalisini tədbirli olmağa çağırır.

Getdikcə mutasiyaya uğrayan virus artıq ənənəvi qripin başqa bir forması kimi xarakterizə edilir. Lakin koronavirusun öldürücü xüsusiyyəti, sonradan səbəb olduğu fəsadları unudulmamalı, mövcud müdafiə qaydaları daim gözlənilməlidir.

### Azərbaycan pandemiyaya qalib gəlir

Hazırda Azərbaycanda epidemioloji vəziyyət qənaətbəxş hesab edilir. Düzgün planlaşdırılmış tədbirlərin həyata keçirilməsi nəticəsində ölkəmizdə ötən il pandemiya ilə bağlı vəziyyət nəzarət altına alınmış və ölkəmizdə tətbiq olunmuş karantin rejimi tədricən yumşaldılmış, daha sərt məhdudiyyətlərin qoyulmasına ehtiyac yaranmamışdı.

Hər il oduğu kimi, ötən il də Səhiyyə Nazirliyi tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının "Qriplə mübarizəyə dair Qlobal Strategiya 2019-2030" sənədinə uyğun olaraq "2022-2023-cü ilin payız-qış mövsümünün başlaması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əks-epidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədilə" əmr imzalanıb. Sənədə əsasən, 2022-2023-cü ilin payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əks-epidemik tədbirlərin görülməsi əsas istiqamətlərdən biri kimi qeyd edilib.

Vəziyyətin nəzarət altında olduğu ölkəmizdə vaksinasiya prosesi bu gün də davam etdirilir. Məhz vurulan peyvəndlərin nəticəsidir ki, yoluxan şəxslər xəstəliyi ağır keçirmir, əvvəlki vaxtlarda olduğu kimi ölüm təhlükəsi ilə üz-üzə qalmırlar. 3 il ərzində qazanılan kütləvi immunitet COVID-19-la mübarizənin ən böyük nəticəsidir.

Azərbaycan dünyada COVID-ə qarşı vaksinləşdirməyə başlayan ilk ölkə olaraq bu sahədə əhəmiyyətli addımlar atıb. Koronavirusa qarşı vaksinasiya ölkədə 2021-ci il yanvarın 18-dən başlayıb. İlkin olaraq səhiyyə işçilərinə vurulmağa başlanılan COVID peyvəndlərindən mərhələli şəkildə digər əhali qrupları, hətta ÜST-nin tövsiyəsinə uyğun olaraq, könüllülük əsasında 16-18 yaşlı yeniyetmələrə də tətbiq edilib.

Koronavirusun ölkə ərasizində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə bu gün ölkədə xüsusi karantin rejimi davam etsə də, ötən il mayın 1-dən etibarən tibbi maskadan istifadə tələbi ləğv edilib, bəzi məhdudiyyətlər aradan qaldırılıb.

### Ehtiyatlı davranmaq əsas öhdəliklərimizdən biridir

Dünyada pandemiya ilə bağlı son üç ildəki vəziyyət COVID-19-un hər yeni variantının əvvəlkindən daha yoluxucu olduğunu göstərdi. Nəticədə insanlar hər dəfə daha sürətlə yayılan yeni bir dalğa ilə rastlaşmalı oldular. Dəfələrlə mutasiyaya uğrayan bu virus üçün pandemiya başlayarkən elan edilən profilaktik qorunma vasitələri olan peyvəndlər və tibbi maskalar hələ də təsirli sayılır.

Mütəxəssislər qeyd edirlər ki, yoluxmaların qarşısının alınması üçün simptomlar müşahidə edildiyi təqdirdə xəstələr özlərini təcrid etməli, ictimai yerlərdən, eləcə də nəqliyyatdan istifadədən yayınmalıdırlar. Yoluxmuş şəxs olduqca sürətli ötürülmə qabiliyyətinə malik olan bu virusu bir anda bir neçə nəfərə yaya bilər.

Əldə edilən nəticələr tez-tez dəyişdiyindən virusun necə mutasiya etdiyini anlamaq qəlizləşir. Hazırda COVID-19-un əlamətləri mövsümi qripə bənzədiyi üçün bəzi hallarda onları fərqləndirmək çətin olur. Bu səbəblə də simptomlar müşahidə olunduğu təqdirdə həkimə müraciət etmək, PZR test vermək mütləqdir. Hər kəsin, xüsusilə yanaşı xəstəliklərdən əziyyət çəkənlərin virusdan qorunmaq üçün gigiyena qaydalarına əməl etmələri çox vacibdir. Unutmamalıyıq ki, pandemiya hələ də davam edir və virusa yoluxanların sayı artır. Ona görə də COVID-19-a tamamilə qalib gəlmək üçün, sadəcə, diqqətli və məsuliyyətli olmaq lazımdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Qış sərt üzünü göstərir

## Aidiyyəti qurumlar mənzillərimizin qaz, işıq, su və istiliklə təminatında problem yaşanmayacağını bildirirlər

**Qış ayları, havanın temperaturunun aşağı düşməsi, yağış, qar yağması, ümumilikdə əlverişsiz hava şəraiti həm paytaxt Bakıda, həm də rayonlarda xüsusi hazırlıq işləri görülməsini tələb edir. Hazırlıq tədbirlərinə yollarda hərəkətin normallığının təmin edilməsi, əhalinin elektrik enerjisi, su, istilik və təbii qazla dayanıqlı təchizatı daxildir. Qabaqlayıcı tədbirlər görülmədiyi halda soyuq, şaxtalı, əlverişsiz hava şəraiti aidiyyəti qurumlara yaranan problemləri həll etməyə maneələr törədir.**



Sinoptiklər qarşıdakı günlərdə havanın kəskin dəyişəcəyini bildiriblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, Bakıda və Abşeron yarımadasında yanvarın 8-dən başlayaraq havanın dəyişəcəyi, arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Şimal-şərq küləyi yarımadanın bəzi yerlərində arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 10-12 dərəcə enərək yanvarın 10-11-də gecə 2 dərəcəyədək şaxta, gündüz 0 dərəcəyə yaxın olacaq.

Hava proqnozu qarşıdakı günlərin şaxtalı, soyuq və əlverişsiz olacağından xəbər verir. Proqnozu nəzərə alaraq aidiyyəti qurumların hansı tədbirlər görməsi ilə maraqlandıq. Məqsədimiz Bakının qara necə hazır olmasını öyrənmək idi.

### İstehlakçıların fasiləsiz enerji ilə təmin edilməsi üçün qabaqlayıcı tədbirlər görülüb

"Azərişıq" ASC-nin Mətbuat xidmətinin rəhbəri Vaqif Aydınoğlu qəzetimizə açıqlamasında dedi ki, qurum tərəfindən qış mövsümündə istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi məqsədilə qabaqlayıcı tədbirlər həyata keçirilib. Onun sözlərinə görə, hazırlıqla bağlı öncədən komissiya yaradılıb, elektrik şəbəkələri üzrə Tədbirlər Planı tərtib olunub.

Vaqif Aydınoğlu qeyd etdi ki, 2500-dən artıq müxtəlif gücdə transformator məntəqəsi və yarımstansiyada elektrik avadanlıqlarının, 6500 km-ə yaxın elektrik veriliş xətlərinin texniki vəziyyəti yoxlanılıb, aşkar edilmiş nasazlıqlar aradan qaldırılıb: "Əlavə olaraq Bakıda və regionlarda 100 ədəd müxtəlif gücdə komplekt transformator məntəqəsi quraşdırılıb, 440 km-dən artıq müxtəlif gərginlikli kabel və hava xətləri çəkilib. Ölkə üzrə bütün elektrik şəbəkələri qış üçün material və avadanlıq ehtiyatı ilə, həmçinin maşın-mexanizmlə təmin olunub. İstehlakçılardan yarana biləcək hər hansı problemlə əlaqədar "Azərişıq" ASC-nin 24 saat fasiləsiz fəaliyyət göstərən 199 saylı Çağrı mərkəzinə müraciət etmələrini xahiş edirik".

### Su sayğaclarına ciddi nəzarət edilməlidir

Əhalinin su təzhizatı ilə bağlı hansı tədbirlərin görüldüyünü də öyrəndik. "Azərsu" ASC-nin mətbuat katibi Anar Cəbrayıllı qurumun həm içməli su, həm də kanalizasiya infrastrukturu ilə bağlı qışa hazır olduğunu bildirdi. Onun sözlərinə görə, tədbirlər planı avqust ayında təsdiqlənib və buna uyğun olaraq payız-qış mövsümünə hazırlıq işləri görülüb. Su anbarları, nasos stansiyaları, kollektorlar, magistral xətlər - hamısı təftiş olunub, hidrotexniki qurğular sazlanıb.

O dedi ki, təmirə ehtiyacı olan hissələrdə işlər görülüb, ötən müddətdə minlərlə baxış quyusu, yağış barmaqlıqları təmizlənib. Eyni zamanda min kilometrlərlə kanalizasiya xətləri yuyulub ki, onların ötürücülük qabiliyyəti tam təmin olunsun.

"Azərsu"nun mətbuat katibi deyib ki, qarlı, şaxtalı günlərdə əsas məsələ sayğacların və su xətlərinin donmasına yol verilməməsi hallarıdır: "Azərsu"nun tikinti norma və qaydalarına uyğun olaraq inşa etdiyi xətlər torpağa basdırılır və şaxtalı günlərdə onların donma ehtimalı olmur, amma xüsusən Bakıətrafı ərazilərdə vətəndaşların fərdi qaydada çəkdiyi yerüstü xətlərdə donma ehtimalı var. Həmçinin həyət evlərində sayğacların donvurmadan sıradan çıxma halları da baş verə bilir. Vətəndaşlar bu məsələdə diqqətli olmalıdırlar".

Qurum rəsmisi abonentlərə tövsiyələrini də verib. O qeyd edib ki, su sayğaclarına ciddi nəzarət etsinlər. Belə ki, sayğacların qutularının qapağı bağlanmalı, izolyasiya materiallarının qopardılmasına yol verilməməlidir. Eyni zamanda sayğacların giriş ventilləri bağlı, çıxış ventilləri açıq olmalıdır ki, içində su qalmasın və gecə saatlarında şaxta zamanı donma halları baş verməsin. Bundan başqa, vətəndaşlar sayğacları üçün fərdi qaydada hazırladıqları qutuların içini, sayğacın ətrafını quru ağac yonqarı ilə doldurmalıdırlar. Həmçinin vətəndaşların fərdi çəkdikləri yerüstü xətlərin üstü mütləq izolyasiya olunmalıdır. Görülən tədbirlər əhalinin şaxtalı günlərdə su ilə bağlı təchizatında yarana biləcək problemlərin qarşısını ala bilər.

Anar Cəbrayıllı onu da vurğulayıb ki, araşdırmalara görə, belə günlərdə Çağrı mərkəzinə gələn müraciətlərin çoxu həyət evlərində su xətlərinin donması və sayğacların sıradan çıxması ilə bağlı olur.

### "Azəristiliktəchizat" şaxtalı günlərdə verilən istiliyin həcmini artıracaq

Şaxtalı, soyuq günlərdə istiliklə bağlı hər hansı problem yaşayıb yaşamayacağımızla bağlı aidiyyəti qurumla əlaqə saxladıq.

"Azəristiliktəchizat" ASC-nin mətbuat katibi Elvin Basqallı bildirib ki, qazanxanalarda istiliyin verilməsi qrafik üzrə tənzimlənir, yəni havanın temperaturu aşağı düşürsə, onda verilən istiliyin həcmi də artırılır. Onun sözlərinə görə, ötən il noyabrın 1-dən respublikanın 6 rayon və şəhərində, noyabr ayının 15-dən isə bütün ölkədə "Azəristiliktəchizat" ASC-nin balansında olan qazanxanalar işə salınıb və fasiləsiz olaraq yaşayış və qeyri-yaşayış obyektlərini istiliklə təmin edir.

Elvin Basqallı deyib ki, hava şəraitindən asılı olmayaraq, əməkdaşlar daim iş başında olurlar, hər hansı problem yaranırsa, Çağrı mərkəzinə müraciət daxil olursa, dərhal məsələyə müdaxilə edir, problemi aradan qaldırırlar: "Əgər hava soyuyursa, əvvəlcədən proqnoz verildiyi üçün qazanxanalardan binalara verilən istiliyin həcmi artırılır. Soyuq günlərdə əməkdaşlarımız buna xüsusi diqqət yetirirlər. Belə halda verilən istiliyin həcmi artırılacaq".

### Qazımız olacaqmı?

"Azəriqaz" İstehsalat Birliyindən bildirilib ki, qurum istənilən fors-major hallara hazırdır. Qış aylarında hava şəraitinin dəyişə biləcəyi nəzərə alınaraq mobil işçi qruplar fəaliyyət göstərir: "Havaların kəskin dəyişməsi mobil qrupları daha məsuliyyətli, çevik olmağa sövq edir. Bu baxımdan havalar nə qədər soyusa da, 104/185 Çağrı mərkəzi, mobil işçi qruplar vəziyyətə nəzarət etməyə hazırdırlar. Bu dövrdə abonentlərimiz qaz təchizatı ilə bağlı ciddi problem yaşamayacaqlar".

Beləliklə, aidiyyəti qurumlar şaxtalı hava şəraitinə tam hazır olduqlarını bildirirlər. Deyilənlərin nə dərəcədə doğru olub olmadığının isə yaxın günlərdə şahidi olacağıq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Vətən uğrunda ölmürlər, şəhid olurlar

"Bir daha analar gözü yaşlı qalmasın". Bu sözləri Beyləqan rayonundan olan şəhid Munis Abbaslının anası Kəmalə xanım deyir. Deyir, ancaq özü göz yaşlarını saxlaya bilmir.




Mən isə dönə-dönə Munisin fotoşəkillərinə baxıram. Onun bütün görkəmində, xüsusən də gözlərində o qədər həyat eşqi var ki, yoxluğunu heç cür qəbul etmək mümkün deyil. Bu barədə Munis özü son telefon danışığında belə deyib: "Biz kişiyik, gəlmişik bura öldürməyə, ölməyə yox. Burda ölən olmur, burda şəhid olur". Kəmalə xanım bundan həm qürurlanır, həm də kədərini cilovlaya bilmir. Eyni zamanda şükür edir ki, övladı torpaq, Vətən uğrunda şərəflə şəhadətə yüksəlib.

Sonra söhbətinə davam edir: "O, ailəmizin yeganə oğul övladı, iki bacının bir qardaşı idi. Adını seçəndə müqəddəs kitabımıza müraciət etdik. Munis adına layiq yaşadı. Mehriban, ünsiyyətli, istiqanlı övlad idi. Mənim munisim, sirdaşımıydı. Ancaq həyat sübut etdi ki, qəlbində ana məhəbbətindən də ülvi hisslər yaşadırmış. Bu, Vətən məhəbbəti, Vətən yolunda şəhidliyə ucalmaq arzusuydu".

Munis Həbibullah oğlu Abbaslı 2000-ci il mart ayının 18-də Beyləqan şəhərində dünyaya gəlmişdir. Fərman Hacıyev adına Beyləqan şəhər 2 saylı tam orta məktəbin məzunu olub. 2018-ci ildə həmin məktəbin XI sinfini bitirib. Atası hərbçi oduğu üçün uşaqlıqdan onun da bu peşəyə marağı vardı. Ona görə də sənədlərini Ali Hərbi Məktəbə vermiş, ancaq müsabiqədən keçməmişdi.

Munis 2018-ci ilin aprel ayında Vətən qarşısında borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə çağırılıb. Nümunəvi, qoçaq, fiziki hazırlığı ilə fərqlənən əsgər olub, komandirlərinin və yoldaşlarının hörmətini qazanıb. 2019-cu il oktyabr ayının 4-də yüksək əhvali-ruhiyyə ilə evlərinə qayıdıb. Rayondakı pambıqtəmizləmə zavoduna işə düzəlib. Ancaq məqsədi ali təhsil almaq idi. Buna görə də işləməklə yanaşı, qəbul imtahanlarına da hazırlaşırdı.

General Polad Həşimovun şəhadətə yüksəlməsi minlərlə Azərbaycan gənci kimi, Munisin də həyat yolunu dəyişdi. O, hərbiyə qayıtmaq, işğal altında olan torpaqlarımızın azad olunmasında iştirak etmək qərarını verdi. Ailəsinə bildirmədən sənədlərini hazırladı. Müvafiq kursa göndərildiyini, müddətdən artıq hərbi qulluqçu kimi xidmət edəcəyini anasına son anda bildirdi, onun xeyir-duasını aldı.

Hazırlıq kursunu başa vurduqdan sonra Munis Abbaslı 2020-ci ilin avqustundan "N" saylı motoatıcı hərbi hissədə manqanın baş atıcısı kimi xidmətə başladı. Bu zaman artıq Munis ali məktəbə qəbul imtahanında iştirak etmişdi. Lakin imtahanın nəticələrini gözləməmişdi. Anasına isə demişdi ki, atalarımızın başa çatdıra bilmədiyi işi biz sona çatdıracağıq, torpaqlarımızı erməni tapdağından təmizləyəcəyik.

Tələbə adını qazanması haqqında xəbəri Munis müharibə başlayandan sonra, cəbhədə olarkən anasından eşidib. Kəmalə ana deyir: "Qəbulun nəticələri dərc olunan jurnalda Munisin adını görəndə bilmədim nə edim. Bu zaman balam odun-alovun içində idi. Ancaq yenə də zəng vurdum, tələbə adını təbrik etdim. Dedim ki, sağ-salamat qayıdıb təhsil alarsan. Bilmirəm o nə düşündü, ancaq mən pis olmayım deyə sevindiyini söylədi. Balam Ağdam Dövlət Sosial-İqtisadi Kollecinə qəbul olunmuşdu".

Munis Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak etməklə bərabər, həm də yaralı yoldaşlarına kömək edir, onları döyüş meydanından çıxarırdı. Anası ilə qısa telefon danışıqları zamanı deyirdi: "Qorxma, mənə heç nə olmayacaq, nəsə olsa belə, yanımda komandirlərim, etibarlı yoldaşlarım var. Biz nə şəhidimizi, nə də yaralını döyüş meydanında qoyuruq. Hər bir halda evimizə qayıdacağam. Salamat gəlsəm, iki qurban kəsərsiniz.Vətən yolunda şəhid olsam, bunu mənim müqəddəs borcum kimi qəbul edin". Munis döyüşlərin birində yaralansa da, geri çəkilməyib, yenidən cəbhəyə qayıdıb.

Son dəfə ailəsi ilə oktyabrın 13-də danışıb. Ayın 14-də Kəmalə ana ondan heç bir xəbər ala bilməyib. Oktyabrın 15-də isə Munis Abbaslı doğulduğu Beyləqan rayonunda torpağa tapşırılıb. Ölümündən sonra Prezidentin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Vətən uğrunda" medalları ilə təltif olunub.

***Svetlana BAĞIROVA,***
***Beyləqan***





# OXUCULARIN NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** ***qəzetinə***
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz,* ***(012) 539-59-33*** *nömrəli telefona zəng vura bilərsiniz.*


# Ermənilər 2023-cü ildən də yaxşı nəsə gözləmirlər

## Ermənistanda siyasi gərginlik getdikcə daha da artır

*Əvvəli 1-ci səh.*

Ekspert 2022-ci ilin iqtisadi göstəricilərini və 2023-ci il üçün proqnozlarını təhlil edərkən bildirib ki, cari ildə Ermənistan həm sosial, həm də siyasi baxımdan ciddi problemlərlə üzləşəcək: "Təəssüf ki, 2023-cü ildə makroiqtisadi canlanma natamam olacaq. 2021-ci ildəki 7,4 faiz iqtisadi geriləmədən sonra bizdə iqtisadi artım xeyli aşağıdır. Ən azı 7 faizə yaxınlaşa biləcəyimizlə bağlı proqnozlar fantaziya janrındandır".

M.Aramyan deyib ki, Ermənistan hökuməti xalqın rəğbətini qazanmaq üçün populist addımlar ataraq ölkənin iqtisadi vəziyyətini daha da ağırlaşdırıb: "Söhbət 2023-ci il yanvarın 1-dən artan pensiya və müavinətlərdən gedir. Mən burada ciddi risklər görürəm. Bu öhdəliyi götürəndə ixtisar, demək olar ki, mümkün deyil. Siz sadəcə olaraq, babalarınıza, nənələrinizə deyə bilməzsiniz ki, mən yanılmışam, iqtisadi vəziyyətin pensiyalarınızı artırmağa imkan vermədiyini qabaqcadan görməmişəm. Mən çox yaxşı başa düşürəm ki, bu, inflyasiyanın fonunda xalqa qarşı edilir. Yalnız bu gün ölkədə ərzaq məhsullarının bahalaşması 20 faizi ötüb və bu, istər-istəməz sosial partlayışa gətirib çıxaracaq. İqtisadiyyatın sütunlarını qurmadan sosial məsələlərin həllinə getmək qətiyyən yanlışdır, çünki bu il məsələni həll edəcəksiniz, gələn il isə əhaliyə daha böyük problem yaradacaqsınız".

Manvel Aramyan Ermənistan iqtisadiyyatının hazırkı vəziyyətini təcili yardıma ehtiyacı olan xəstə ilə müqayisə edib. Qeyd edib ki, sağalmaq üçün hələ də ümid var. Amma bunun üçün xərcləmələrdən əl çəkməli, kəmərini sıxmağı bacarmalı və ilk növbədə bunu özündən başlamalıdır: "Hökumət özünü necə doğrultsa da, iqtisadi aktivliyin 5 faizlik göstəricisi olduğunu bəyan etsə də, mən iki amili səsləndirəcəyəm. Xahiş edirəm unutmayın ki, siz artımdan qat-qat dərin tənəzzül keçirmisiniz, ikincisi, struktura baxın, iqtisadiyyatınız necə inkişaf edir? Biz əsasən ekzogen hadisələr hesabına ayaqüstə dururuq. Bu, transfertlərin axını və misin dünya bazarındakı qiymətlərində yüksək artımın baş verməsi hesabına olur. Bunlar iqtisadi aktivliyin az-çox yüksək göstəricilərinə səbəb olan iki amildir".

Bütün bunların fonunda İrəvanda baş nazir Nikol Paşinyanın hökumətin iclasında Azərbaycan ərazisində müvəqqəti yerləşən Rusiya sülhməramlılarını tənqid, hətta təhdid etməyi gündəm mövzusu olaraq qalmaqdadır. Belə ki, Paşinyan Rusiya sülhməramlılarının fəaliyyətinin qənaətbəxş olmadığını əsas gətirərək Qarabağa digər beynəlxalq təşkilatların, BMT-nin sülhməramlılarının gətirilməsini təklif edib. Paşinyan bu təkliflərini müxtəlif bəhanələr gətirərək əsaslandırmağa çalışsa da, reallıq odur ki, Ermənistan rəhbərliyi Rusiya sülhməramlılarını əvəzləməyə və regiona əlavə qüvvələr gətirməyə çalışır.

Bu açıqlamalar ilə Paşinyan bir növ sülhməramlıları və dolayı yolla Rusiyanı təhdid edir. Yəni onların sülhməramlılardan gözləntisi birmənalı olaraq erməni maraqlarına xidmət etməsidir. Sülhməramlıların indiki fəaliyyəti Paşinyanı narazı saldığından indi o, Rusiya ilə təhdid formasında danışır.

Bu arada Ermənistanda hərbi hissələrdən birinin keçmiş komandiri Arsen Abqaryanın işi üzrə keçirilən məhkəmə iclasında Andranik Makaryan, Sarkis Kulakçyan, Ellada Harutyunyan ilə bağlı ittiham aktı açıqlanıb. Müharibə zamanı itkin düşən əsgər analarından biri deyib ki, baş qərargah rəisinin keçmiş müavini Andranik Makaryan özünə ittihamları qəbul etmir. "Deyir ki, əmrə əməl ediblər. Onda desin ki, kimin əmrini yerinə yetirirdilər? Onlar bilirdilər ki, həmin ərazi artıq Azərbaycanın nəzarətindədir, amma buna baxmayaraq, oğlanları ora göndərdilər, buna görə də hamısı cəzalandırılmalıdırlar. Onlar əsgər valideynlərindən qaçırlar, çünki bizə nə deyəcəklərini bilmirlər".

İttihama görə, xüsusi döyüş tapşırığına cavabdeh olan general Makaryan Arsen Abqaryanın dəstəsinin mühasirəyə alındığını öyrəndikdən sonra köməyə tələsməyib, geri çəkilmək əmri verib və Qafana qayıdıb. Nəticədə "kimyaçıların hərbi hissəsi" adlanan Abqaryanın dəstəsinin 40 hərbçisindən 5-i əsir götürülüb, 12-si həlak olub, qalan 23 hərbçi və avtobus sürücüsü itkin düşüb. General Andranik Makaryan heç nə etməməkdə ittiham olunur və onu 7 ildən 13 ilə qədər həbs gözləyir.

Bütün bunlar göstərir ki, 2023-cü ildə ölkənin daha dərin böhran yaşaması, ağır problemlər içində çabalaması, insanların narazılığının pik həddə çatması qaçılmazdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənipərəst Nensi Pelosini Kevin Makkarti əvəzlədi

## ABŞ-də Respublikaçılar Nümayəndələr Palatasına nəzarəti bərpa etdilər

ABŞ Konqresinin Nümayəndələr Palatasındakı respublikaçıların lideri Kevin Makkarti səsvermənin 15-ci turunun nəticələrinə görə onun spikeri seçilib. O, 216 səs, əsas rəqibi demokrat Hakim Cefris isə 212 səs toplayıb.



Palatanın iclası Amerikanın mərkəzi telekanalları tərəfindən yayımlanıb. Səsvermənin əvvəlki raundunda Makkarti eyni sayda səs toplasa da, bu, qalib gəlmək üçün kifayət etməmişdi. Son turda altı konqresmen namizədlərin heç birinə səs verməyib və bu, nəhayət ki, Makkartinin qələbəsini təmin edib. 4 gün davam edən proses bitdikdən sonra iclasın moderatoru Şeril Conson deyib:"Kaliforniyadan olan Kevin Makkarti səslərin əksəriyyətini alıb və lazımi qaydada Nümayəndələr Palatasının spikeri seçilib".

Respublikaçılar 57 yaşlı Makkartinin seçilməsini ayaqüstü sürəkli alqışlarla qarşılayıblar. Nümayəndələr Palatasının sədri ABŞ Konstitusiyasında təsbit olunmuş Konqresdə vəzifə tutur. Vitse-prezidentdən sonra o, prezidentliyə növbəti sırada gəlir.

Hansı qanun layihələrinə baxılacağını və səsə qoyulacağını spiker, onun müavinləri və komitə sədrləri müəyyənləşdirirlər. Onlar gündəliyi hazırlayır və debatı tənzimləyən qaydaları müəyyən edirlər.

Makkartinin bu vəzifəni hələ çərşənbə axşamı tutması gözlənilirdi, lakin Nümayəndələr Palatasının sədrini seçmək üçün 15 dəfə səs vermək lazım olub. Çünki bir qrup radikal respublikaçı öz partiyalarının üzvünü dəstəkləməkdən imtina edib. Lakin onların bəziləri sonda mövqelərini dəyişiblər.

CNN telekanalı bildirib ki, bəzi respublikaçılar keçmiş prezident Donald Trampla telefon danışığından sonra mövqelərinə yenidən baxıblar.

Sonuncu dəfə Nümayəndələr Palatasının sədrinin birinci turda seçilməməsi ilə bağlı vəziyyət 100 il əvvəl yaranmışdı. Belə ki, 1923-cü ildə spikeri seçmək üçün doqquz tur lazım olmuşdu.

ABŞ Prezidenti Co Bayden Kevin Makkartini Nümayəndələr Palatasının sədri seçilməsi münasibətilə təbrik edib və imkan daxilində "respublikaçılarla işləməyə" hazır olduğunu bildirib.

Nümayəndələr Palatasının əvvəlki sədri demokrat Nensi Pelosi idi. Ermənipərəst siyasətçi 2022-ci ilin noyabrında tutduğu vəzifədən getdiyini açıqlayıb. O vaxt gözlənilən idi ki, aralıq seçkilərdən sonra respublikaçılar Nümayəndələr Palatasına nəzarəti bərpa edəcəklər. Yekunda bu baş verdi.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıda və Abşeron yarımadasında çovğun olacağı ehtimalı var

Yanvarın 8-dən başlayaraq 12-dək Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişəcəyi, yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək, yanvarın 7-si axşamdan 10-u gündüzədək arabir güclənəcək. Yanvarın 8-i gündüzdən 10-u gündüzədək arabir çovğun olacağı ehtimalı var.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, havanın temperaturu ötən günlərlə müqayisədə 10-12° enərək gecə 1-3° şaxta, gündüz 0 dərəcəyə yaxın olacaq. Yanvarın 8-i axşamdan 12-dək yolların buz bağlayacağı gözlənilir.

Yanvarın 8-dən başlayaraq 12-si səhərədək ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, yağıntılı olacağı, sulu qar, qar yağacağı, ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Şimal-şərq küləyi əsəcək, yanvarın 7-si axşamdan 10-u gündüzədək arabir güclənəcək. Çovğun olacağı ehtimalı var. Havanın temperaturu ötən günlərlə müqayisədə 10-12° enərək gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 2°-dək isti, dağlıq rayonlarda isə gecə 10-15°, gündüz 5-8° şaxta olacaq. Yollar buz bağlayacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən Cavanşir Yusifov Elçin Muradova qardaşı

**MAHİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsinin rəisi Rövşən Abdullayevə atası

**TƏRLAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4331**
**Sifariş 3**

**Qiyməti 40 qəpik**